## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANA SƏFƏRƏ GEDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün sentyabrın 27-də Tacikistan Respublikasına səfərə gedib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Düşənbə şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi Tacikistanın Baş nazirinin müavini Azim İbroxim və digər rəsmi şəxslər qarşılayıblar.

## BAKIDA IX AZƏRBAYCAN-RUSİYA REGİONLARARASI FORUMUNUN RƏSMİ AÇILIŞ MƏRASİMİ OLUB

*Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər*



Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər...

Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 28 sentyabr 2018-ci il, cümə / № 183 (5310). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Rusiya Prezidenti Vladimir Putin Azərbaycana işgüzar səfər edib



*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub*

### Azərbaycan, Rusiya və Monqolustan prezidentləri cüdo üzrə dünya çempionatının qarışıq komanda yarışlarına baxıblar

Sentyabrın 27-də cüdo üzrə dünya çempionatı çərçivəsində qarışıq komanda yarışları keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, ölkəmizdə işgüzar səfərdə olan Rusiya Prezidenti Vladimir Putin, Monqolustan Prezidenti Xaltmaagiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının...

Bax səh. 3

### Bakıda keçirilən "ADEX-2018" üçüncü Beynəlxalq Müdafiə sərgisi başa çatıb



Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda keçirilən "ADEX-2018" üçüncü Beynəlxalq Müdafiə sərgisi sentyabrın 27-də başa çatıb. AZƏRTAC xəbər verir ki, üç gün davam edən sərgidə Türkiyə...

Bax səh. 8

### Azərbaycan-Rusiya Regionlararası Forumu işini plenar iclasla başa çatdırıb

Doqquzuncu Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılışı mərasimi plenar iclasla davam edib. AZƏRTAC xəbər verir ki, plenar sessiya Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkinin sədrliyi ilə keçirilib. Nazir Şahin Mustafayev bildirib ki, Azərbaycan və Rusiyanın dövlət başçıları arasındakı yüksək səviyyəli münasibətlər iki ölkənin əməkdaşlığının...

Bax səh. 4

### Vatikanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd edilib



Heydər Əliyev Fondunun və ölkəmizin Fransa və Müqəddəs Taxt-Tacdakı səfirliyinin təşkilatçılığı ilə Vatikanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd olunub. AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə...

Bax səh. 5

### Yeni ekspozisiyalar Şamaxı Tarix-Diyarşünaslıq Muzeyini daha da zənginləşdirib

Sentyabrın 27-də Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin yeni ekspozisiyalarla tərtibatından sonra açılışı olub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində Nəsimi - şeir, incəsənət və mədəniyyət festivalına gələn mədəniyyət və incəsənət xadimləri, xarici qonaqlar da iştirak ediblər. Qonaqlar xoş musiqi, rəqs qrupunun çıxışları ilə qarşılanıb. Rayon icra hakimiyyətinin başçısı Asif Ağayev tədbir iştirakçılarını...

Bax səh. 6





## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin sentyabrın 27-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycan Respublikasına işgüzar səfəri sentyabrın 27-də başa çatıb.

## AZƏRBAYCANIN REGİONLARINDA ARIÇILIĞIN İNKİŞAFI DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

...Solmaz Nəcəfova qeyd edib ki, arıçılıqla məşğul olan şəxslərə saxladıqları hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya müəyyən edilməsi bu sahəyə marağı daha da artıracaq. "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə subsidiya verilməsi ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi qaydalarla tanış oldum. Biz arıçılar arıçılığın inkişafına göstərilən dövlət qayğısından ruhlanaraq, təsərrüfatımızı daha da genişləndirəcək və arıçılıq məhsulları istehsalında yüksək nəticələrə nail olmağa çalışacağıq", - deyə arıçı bildirib. Bu məqamda vurğulamaq yerinə düşər ki, dövlət tərəfindən göstərilən diqqət və qayğı regionlardakı arıçıları daha məhsuldar işləməyə sövq edib. Məsələn, Astara rayonunda arıçılıqla məşğul olan fermerlər və məhsul istehsalçıları bu il yüksək məhsuldarlığa nail olublar. Rayonun arıçıları ilk bal süzümünü may ayının sonu - iyunun əvvəllərində aparıblar. Bundan sonra isə daha da bol məhsul əldə etmək üçün arı ailələri Aran rayonlarına...

Bax səh. 8





## BAKIDA IX AZƏRBAYCAN-RUSİYA REGİONLARARASI FORUMU KEÇİRİLİB

Sentyabrın 27-də Bakıda, Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın İqtisadiyyat Nazirliyi və Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən Forumda Azərbaycan və...

Bax səh. 4

### Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı başlayıb



Sentyabrın 27-də Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalına start verilib. Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən festivalın ideya müəllifi Fondun...

Bax səh. 5

### Bakıda "Milli-mənəvi dəyərlərin təbliğində gənclər təşkilatlarının rolu" mövzusunda konfrans keçirilib



Sentyabrın 27-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan...

Bax səh. 5

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Küveyt Dövlətinin ölkəmizdəki səfiri ilə görüşüb



Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Küveyt Dövlətinin ölkəmizdəki fövqəladə və...

Bax səh. 4

### Bakıda keçirilən cüdo üzrə dünya çempionatına yekun vurulub



Sentyabrın 27-də Bakıdakı Milli Gimnastika Arenasında keçirilən cüdo üzrə dünya çempionatına yekun vurulub. AZƏRTAC xəbər verir ki, çempionatın sonuncu - səkkizinci günündə...

Bax səh. 8

# Rusiya Prezidenti Vladimir Putin Azərbaycana işgüzar səfər edib

## Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub

*Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər*



Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər.

Azərbaycan və Rusiya prezidentləri açılış mərasimində çıxış ediblər: **"Hörmətli Vladimir Vladimiroviç.**

**Hörmətli qonaqlar.**

**Əziz dostlar, xanımlar və cənablar.**

İlk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putini, eləcə də, onu müşayiət edən şəxsləri Azərbaycanda salamlamaq istərdim, xoş gəlmisiniz. Sizi görməyimizə həmişə çox şadıq.



Rusiya və Azərbaycan prezidentlərinin bu gün regionlararası forumda iştirakı həmin forumun fəaliyyətinə nə qədər böyük əhəmiyyət verdiyimizi sübut edir. Bu, IX forumdur. Gələn il yubiley forumu olacaq. Biz şadıq ki, ilk forum 2010-cu ildə Azərbaycanda keçirilib. Bununla da çox fəal regionlararası əməkdaşlığa təkan verilib. Min nəfər tutan bu salonun tamamilə dolması bu foruma nə qədər böyük maraq olduğuna dəlalət edir.

Biz Vladimir Vladimiroviçlə müntəzəm görüşürük. Bu yaxınlarda - sentyabrın əvvəlində mən Rusiya Federasiyasına rəsmi səfər etdim, biz çox məhsuldar danışıqlar apardıq. Gündəliyin bütün məsələləri üzrə çox mükəmməl fikir mübadiləsi oldu. Bir aydan da az müddətdən sonra Rusiya Prezidentinin Azərbaycanda olması bizim aramızda mövcud münasibətlərin parlaq sübutudur. Mənim səfərim çərçivəsində fəaliyyətin əksər sahələrini əhatə edən və uzun illər əvvəlcədən bizim münasibətlərimizin gələcəkdə daha da inkişafını müəyyənləşdirəcək 16 sənəd imzalanmışdır. Həmçinin qeyd etməliyəm ki, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin son 5 il ərzində 4-cü dəfədir ki, Azərbaycanda olur. Mən də müntəzəm olaraq Rusiyaya səfər edirəm, bu da bizim tərəfdaşlığımızın, ölkələrimiz arasında dost, mehriban qonşuluq münasibətlərinin parlaq sübutudur.

Ticari-iqtisadi əlaqələrə gəlincə, biz inkişaf dinamikasını görürük, bu olduqca güclü təəssürat oyadır, bu artmaqda olan dinamikadır. Ötən il də, bu il də əmtəə dövriyyəsi artıb. Rusiya Azərbaycan üçün idxal üzrə bir nömrəli tərəfdaşdır və bizim qeyri-neft sektorunun məhsullarının ixracı üzrə də bir nömrəli tərəfdaşdır.

Həmçinin qarşılıqlı investisiyalarla əlaqədar layihələr həyata keçirilir. Biz burada da müsbət dinamikanı görürük. Energetika, neft-qaz sahələrində çox möhkəm əlaqələr mövcuddur. Biz, mənim Rusiya Federasiyasına rəsmi səfərim çərçivəsində "Rossneft" ilə SOCAR şirkətləri arasında əməkdaşlıq barədə mühüm sənəd - müqavilə imzaladıq. Eləcə də, 20 ildən artıqdır ki, Azərbaycanda "LUKoil" şirkəti uğurla işləyir, bizim üçün mühüm investordur. Elektroenergetika sahəsində bizim enerji sistemləri paralel rejimdə işləyir. Biz, mənim sentyabr səfərim çərçivəsində yüksəkgərginlikli elektrikötürücü xəttin ikinci növbəsinin tikintisi ilə bağlı məsələləri müzakirə etdik. Bu xəttin tikintisi elektrik mübadiləsini daha çox nizama salmağa və bu sahədə üçüncü ölkələrlə əlaqələri genişləndirməyə imkan verəcək.

Biz nəqliyyat sahəsində çox fəal əməkdaşlıq edirik. Bizim birgə reallaşdırdığımız "Şimal-Cənub" layihəsi artıq öz nəticələrini verir. Ötən illə müqayisədə biz bu il həmin dəhlizlə yükdaşımaların nəqlinin 100 dəfədən çox artdığını görürük. Həm də bu, yalnız başlanğıcdır. Hesab edirik ki, bu dəhliz Avrasiyanın ən mühüm nəqliyyat xətlərindən biri olacaq, bununla da ölkələrimizin daha da yaxınlaşmasına kömək edəcək və tranzit potensialımızı artıracaq. Həmçinin qeyd etmək istərdim ki, təkcə Azərbaycan milli aviaşirkəti Rusiyanın müxtəlif şəhərlərinə həftədə 50-dən çox reys həyata keçirir. Əgər, Rusiyanın aviadaşıyıcılarını da əlavə etsək, biz vətəndaşlarımızın öz aralarında necə ünsiyyət saxladıqlarını və əlaqələrimizin intensivliyini görərik.



Turizm sahəsində də biz Rusiya vətəndaşları tərəfindən Azərbaycanı ziyarətin çox əhəmiyyətli dərəcədə artdığını görürük. Hələ başa çatmamış 9 ay ərzində 700 minədək rusiyalı Azərbaycanı ziyarət edib. Əminəm ki, bu rəqəm də gələcəkdə artacaq.

Bank sahəsində çox yaxşı əməkdaşlıq və perspektivlər mövcuddur. Azərbaycanda VTB kimi iri Rusiya bankı fəaliyyət göstərir. Yeri gəlmişkən, Azərbaycan bu bankın ən iri xarici səhmdarıdır. Həmçinin "Qazprombank" nisbətən bu yaxınlarda Azərbaycanın 400 milyon dollardan artıq dəyəri olan iri sənaye layihəsini maliyyələşdirib. Yəni, bütün bunlar bizim əməkdaşlığımızın mühüm elementləridir.

Maşınqayırma bizim əməkdaşlığımızın nisbətən yeni sahəsidir. Azərbaycanda artıq "KamAZ", "Ural" avtomobilləri buraxılır. Artıq yüzlərlə belə avtomobil konveyerlərdən düşürülüb. Eləcə də, bizim ölkəmizdə "QAZ" avtomobillərinin istehsalı haqqında razılıq əldə olunub. Yəni, biz bütün istiqamətlərdə çox səmərəli dinamika görürük və bütün bunlar bizim münasibətlərimizin ruhunu, xarakterini səciyyələndirir.

Əlbəttə ki, bizim münasibətlərimizin təməlində tarixi, mədəni əlaqələrimiz, xalqlarımızın yaxınlığı durur. Əlbəttə, biz birlikdə humanitar əlaqələrin inkişafı üzərində çox fəal işləyirik. Gələn ay Bakıda Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında növbəti Humanitar Forum keçiriləcək. Bu, beynəlxalq Forum artıq humanitar xarakterli məsələlərin, mədəniyyətlərarası dialoqun, konfessiyalararası münasibətlərin müzakirəsi üçün mühüm qlobal meydana çevrilib. Azərbaycanda tədrisin rus dilində aparıldığı 341 məktəb, Rusiyanın aparıcı ali təhsil ocaqları olan Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Həmçinin mədəniyyət sahəsində çox sıx qarşılıqlı fəaliyyət var. Burada Rusiya-Azərbaycan münasibətləri barədə çox danışmaq olar, sadəcə, bugünkü forumun formatına görə hamısını əhatə etmək mümkün deyil. Amma biz münasibətlərin gələcəkdə də fəal inkişafına istiqamətlənmişik. Həmçinin düşünürəm ki, bizim gələcək əməkdaşlığımız çərçivəsində gələn il üçün nəzərdə tutulan Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılması mühüm addım olacaq. Bu tarixi bina ötən əsrin ortalarında Azərbaycan pavilyonu olub, biz onu bərpa edirik. Düşünürəm ki, biz belə mühüm beynəlxalq sərgi meydanında iştirak edəcəyik və öz nailiyyətlərimizi nümayiş etdirəcəyik.

Rusiya regionları ilə də bizim çox sıx münasibətlərimiz mövcuddur. Rusiya Federasiyasının 20-yə yaxın subyektinin Azərbaycanla müvafiq razılaşmaları var. Bizim Rusiya regionlarında, eləcə də Rusiya regionlarının Azərbaycanda ticarət nümayəndəlikləri açılır.

Yəni, əminəm ki, regionlararası əməkdaşlıq ölkələrimizi birləşdirən bütün dost, mehriban qonşuluq münasibətləri kompleksini üzvi sürətdə tamamlayacaq.

Mən Prezident Vladimir Vladimiroviç Putinə bu gün Azərbaycanda olduğuna görə təşəkkürümü bildirmək istərdim. Bu, bizim üçün çox qiymətlidir. Biz buna dostluğun, ölkəmizə hörmətin əlaməti kimi baxırıq. Əlbəttə, sizin qarşınızda çıxış etməyimiz sizin apardığınız işin əhəmiyyətini nəzərə çarpdırır. Mən foruma uğurlar, ölkələrimizin və xalqlarımızın rifahı naminə gələcək nailiyyətlər arzulayıram. Sağ olun".

Prezident Vladimir Putinin çıxışı: **"Hörmətli İlham Heydər oğlu.**

**Dostlar, xanımlar və cənablar.**

Azərbaycan Prezidenti kimi, mən də bu gün belə mötəbər auditoriyaya bir neçə kəlmə demək imkanımız olduğu üçün məmnunluğumu ifadə etmək istəyirəm. Doqquzuncu regionlararası forum, əslində, onu göstərir ki, biz bütün bu illər ərzində nəinki hədər vaxt itirməmişik, biz fəal işləmişik, həm də bütün istiqamətlərdə. Bu da öz nəticələrini verir. Mən bəzi məsələləri təkrar edəcəyəm, bəzilərini əlavə olaraq xatırladacağam. Amma hər halda bu salonda həm elm, həm yaradıcı ziyalılar, həm biznes nümayəndələri, həm siyasətçilər toplaşıblar və bütün bunlar birlikdə yüksəlişə doğru yaxşı nəticələr verir.

Qeyd edim ki, regionlararası əlaqələr bizim dövlətlərarası münasibətlərimizin mühüm tərkib hissəsidir. Rusiya Federasiyasının təxminən 70 regionu Azərbaycanın regionları ilə sıx işləyir. Burada liderlər, sözsüz ki, Moskva vilayəti, Sankt-Peterburqdur, amma təkcə onlar yox, həm də Stavropol, Krasnodar diyarları, Həştərxan vilayəti, Nijeqorod, Çelyabinsk, Volqoqrad, Saratov, Sverdlovsk vilayətləri.

Bütövlükdə Rusiya ilə Azərbaycan arasında münasibətlərdən danışarkən qeyd etmək istərdim ki, dövlətlərimiz arasında münasibətlər, sözsüz ki, mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. Biz həmişə maraqlar balansı axtarırıq və onu tapırıq. Azərbaycan Prezidentinin indicə haqqında dediyi bu yaxınlardakı Soçi danışıqlarının gedişində, sözsüz ki, bizim dövlətlərarası əlaqələrimizin gələcək quruculuğu üçün əlavə normativ baza yaradan bir sıra sənədlər, razılaşmalar imzaladıq. Qeyd edim ki, indi Azərbaycan bazarında artıq Rusiyanın iştirakı ilə təxminən 700 birgə şirkət fəaliyyət göstərir. Birbaşa Rusiya sərmayələrinin ümumi həcmi isə bir milyard yarım dollardan çox təşkil edir. Qarşılıqlı, səmərəli biznes əlaqələrinin qurulmasına Rusiya-Azərbaycan İşgüzar Şurası böyük kömək göstərir. Təkcə ötən il bu şura ümumilikdə yarım milyard dollara yaxın məbləğdə dəyəri olan 42 birgə layihəni dəstəkləyib. Azərbaycanda Rusiyanın energetika korporasiyaları uğurla işləyirlər. Bu barədə artıq deyilib, "Rosneft" şirkəti Azərbaycanın Dövlət Neft Şirkəti ilə birgə yaxın vaxtlarda "Qoşadaş" neft-qaz yatağının kəşfiyyatına və mənimsənilməsinə başlayacaq. "LUKoil" Azərbaycanın enerji layihələrinə 4 milyard dollara yaxın sərmayə qoyub. Bu barədə də burada deyildi. Bizim neftin nəqli üzrə gələcək inhisarımız olan "Transneft" Azərbaycan neftinin Bakı-Novorossiysk neft kəməri ilə ixracının etibarlı tranzitini təmin edir.



Biz maşınqayırma sahəsində kooperasiyanın dərinləşdirilməsi üçün yaxşı imkanlar görürük. Bu barədə də artıq bu gün danışılıb. "KamAZ" işləməyə başlayıb. Orada artıq texniki yığım və avtomobillərə xidmət həyata keçirilir. "Avtovaz" "Lada" avtomobillərinin satışı üzrə Azərbaycanın bütün regionlarında geniş pərakəndə şəbəkə yaradıb. Respublikada 40-dan çox şöbə yaradılıb. Öz növbəsində Azərbaycandan olan sərmayədarlar Rusiyada kənd təsərrüfatı obyektlərinin inşasında iştirak edirlər. Onların arasında, məsələn, Nijeqorod vilayətində istixana kompleksidir. Sərmayələrin həcmi milyard rubldan artıq təşkil edir. Eləcə də Krasnodar diyarında ərzaq məhsulları buraxılışı üzrə birgə müəssisəni misal çəkə bilərəm.

2017-ci ildə Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiyaya satışı demək olar 12 faiz artıb. Bu, yarım milyard dollarlıq ümumi həcmdir. Bizim tərəfdaşlarımız bu sahəyə yüksək maraq göstərirlər. 30-dan çox Azərbaycan şirkətinin sentyabrın 17-dən 20-dək Moskvada Beynəlxalq Ərzaq Sərgisində iştirakı buna sübutdur.

Rusiya və Azərbaycan birgə infrastruktur layihələri həyata keçirirlər. Məsələn, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin yaradılması davam edir. Bu, Avropa və Asiya bazarlarını yaxınlaşdırmağa yönələn, İran, Azərbaycan və Rusiyadan keçən dəhlizdir. Bu miqyaslı, həqiqətən irimiqyaslı böyük iş, yaxud təşəbbüs çərçivəsində ölkələrimizin inşaatçıları Samur çayı üzərində sutkada 37 mindən çox maşın buraxmaq qabiliyyəti olan yeni körpü tikirlər.

Xəzər dənizinin statusu haqqında Konvensiya da bizim dövlətlərimiz arasında qarşılıqlı faydalı kooperasiya üçün yeni imkanlar açıb. Sözsüz ki, bu, irəliyə doğru gedən qərardır. Sözsüz, orada hamının işləməsi, tammiqyaslı implementasiyaya nail olmaq üçün çox iş görmək lazımdır. Amma artıq mövcud sənədlərin imzalanması Xəzər regionunda əməkdaşlıq üçün bizə yaxşı baza yaradır. Ümid edirik ki, Rusiya və Azərbaycan şirkətləri Xəzər regionunda perspektivli layihələrin reallaşdırılması ilə fəal məşğul olacaqlar. İlk növbədə, nəqliyyat, yük daşımaları, neft-qaz hasilatı, ekologiya və sözsüz ki, Xəzərin bioehtiyatlarının və biomüxtəlifliyinin qorunması sahəsində.

Turizm sahəsində ikitərəfli əlaqələr intensiv inkişaf edir. Yeri gəlmişkən, Azərbaycan sahibkarlarının sayəsində Yessentukidə sanator-kurort mərkəzi inşa edilib. Jeleznovodskda mehmanxana kompleksi ucaldılır. Həmçinin Xəzərdə birgə dəniz kruiz səyahətlərini inkişaf etdirməyi planlaşdırırıq.

Əlbəttə, Rusiya və Azərbaycan humanitar əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verirlər. Azərbaycan Prezidenti bu barədə indicə danışdı. İndicə səsləndiyi kimi, Bakıda bizim iki iri ali məktəbin - Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir. Elmi və tələbə mübadilələri genişlənir. Rostovun Nəqliyyat Yolları Universiteti, Həştərxan Universiteti azərbaycanlı tərəfdaşlarla yüksək peşəkar kadrların hazırlanmasına dair proqramlar işləyib hazırlayırlar, ilk növbədə, iqtisadi ixtisaslar üzrə. Biz sözsüz ki, ölkələrimizin təhsil, mədəniyyət və elm sahələrində əlaqələrini gələcəkdə də hər cür stimullaşdırmaq niyyətindəyik. Xüsusilə qeyd edirəm, biz Prezidentlə Soçidə də bu haqda danışmışıq. Biz bunu görürük və biz bunu - Azərbaycanda rus dilinə marağı yüksək dəyərləndiririk. Həm də təkcə Azərbaycan vətəndaşlarının rus dilinə marağını yox, eyni zamanda, dövlət, şəhər bələdiyyələri tərəfindən köməyi yüksək dəyərləndiririk. Biz bütün bunların hamısını görürük. Prezidentin haqqında dediyi 300-dən çox məktəb, əlbəttə, bazadır, amma ən əsas baza insanların ürəyində, beyinlərindədir. Bu, əməkdaşlığa, əlaqələrin qorunmasına və inkişafına aşkar cəhd deməkdir.

Hörmətli dostlar və həmkarlar. Mən Rusiya və Azərbaycan regionlarının fəal iştirak etdiyi, ölkələrimizin qarşılıqlı fəaliyyətinin yalnız bəzi istiqamətlərinə toxundum. Əməkdaşlıq üçün imkanlar həqiqətən çox genişdir. Həm də regional səviyyədə bizim qarşılıqlı fəaliyyətimizin konkret istiqamətlərini, ilk növbədə, siz - bu salonda toplaşanlar və sizin yerlərdəki həmkarlarınız müəyyənləşdirir. Mən, sözsüz ki, sizə bu işdə hər cür uğurlar arzulamaq istəyirəm. Diqqətinizə görə təşəkkür edirəm".

* * *

Forum işini plenar iclasda müzakirələrlə davam etdirib.

# Rusiya Prezidenti Vladimir Putin Azərbaycana işgüzar səfər edib

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub





Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Rusiya prezidentləri görüşdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: **"Hörmətli Vladimir Vladimiroviç, icazə verin, Sizi Azərbaycanda bir daha salamlayım, xoş gəlmisiniz.**

**Biz, Sizi görməyimizə həmişə çox şadıq. Sizin bugünkü səfəriniz xüsusi xarakter daşıyır. Biz bu gün ilk dəfə olaraq rekord miqdarda - minə yaxın iştirakçı toplayan Azərbaycan-Rusiya Regionlararası Forumunun işində iştirak edirik. Bu da tədbirə göstərilən böyük marağa dəlalət edir. Biz Sizinlə bu ayın əvvəlində Soçidə görüşmüşdük, bu gün isə Bakıda görüşürük. Bu, bizim münasibətlərimizin səviyyəsinin parlaq göstəricisidir. Biz həm siyasi, həm də iqtisadi, nəqliyyat, energetika, humanitar sahələrdə fəal əməkdaşlıq edirik. Biz bütün istiqamətlərdə böyük tərəqqi görürük. Biz bu barədə indicə Forum iştirakçılarına danışdıq, bununla onlara daha fəal işləmələri və əməkdaşlığımızı inkişaf etdirmələri üçün daha bir impuls verdik. Rusiya bizim üçün münasibətlərimizin ən yüksək səviyyədə olduğu çox mühüm və dəyərli tərəfdaş, dost və qonşudur. Düşünürəm ki, gələcək illərdə biz əməkdaşlığımızı yalnız inkişaf etdirmək, ölkələrimizin biznes qurumları üçün daha yaxşı şərait yaratmaq və bütün istiqamətlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək yolu ilə gedəcəyik. Bir daha "Xoş gəlmisiniz!" deyir və səfərə görə təşəkkür edirəm".**

* * *

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin deyib: **"Çox sağ olun, hörmətli İlham Heydər oğlu.**

**Bakıya dəvətə və cüdo üzrə dünya çempionatında olmaq imkanına görə çox sağ olun. Mən bunun necə layiqli, çox yüksək beynəlxalq səviyyədə təşkil edildiyini, təşkilatçıların, cənab Vizer başda olmaqla Cüdo üzrə Beynəlxalq Federasiyanın məmnunluğunu görürəm. Mənə indi burada hər şeyin necə peşəkarlıqla təşkil edildiyini dedilər. Bu, təkcə cüdonun deyil, bütövlükdə dünya idmanının inkişafına böyük töhfədir.**

**Əlbəttə ki, bu gün regionlararası forumda bizim iştirakımız da bu qısa işgüzar səfərin əhəmiyyətli tərkib hissəsidir. Doğrudur, biz bu yaxınlarda Soçidə görüşdük, amma münasibətlərimizin yüksək səviyyəsini və həcmini nəzərə alaraq, bizim həmişə danışmağa sözümüz var. Necə deyərlər, MDB-nin sammiti meydanlarında da ünsiyyətimiz gözlənilir. Amma, şübhəsiz, çox əladır ki, bu şəraitdən istifadə edərək ikitərəfli münasibətlər haqqında danışmaq imkanı var. Biz hələ Soçidə qeyd etmişdik ki, münasibətlərimiz həm iqtisadiyyat, həm də digər sahələrdə müsbət inkişaf edir. İndi gərək elə edək ki, Sizin Rusiyaya səfərinizin gedişində bizim qarşılıqlı fəaliyyətimizə verilən impuls itməsin və Sizinlə imzaladığımız çox əhəmiyyətli sənədlər işləsin. Düşünürəm ki, biz bu gün elə bu barədə danışacağıq. Sağ olun".**

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin söhbətlərini çay süfrəsi arxasında davam etdiriblər.

# Azərbaycan, Rusiya və Monqolustan prezidentləri cüdo üzrə dünya çempionatının qarışıq komanda yarışlarına baxıblar














Sentyabrın 27-də cüdo üzrə dünya çempionatı çərçivəsində qarışıq komanda yarışları keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, ölkəmizdə işgüzar səfərdə olan Rusiya Prezidenti Vladimir Putin, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer yarışlara baxıblar.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizə işgüzar səfərə gələn Rusiya Prezidenti Vladimir Putini qarşılayıb.

Rusiya Prezidenti Azərbaycan Prezidentinin ailə üzvləri, Monqolustan Prezidenti və Beynəlxalq Cüdo Federasiyasının prezidenti ilə görüşüb.

Bakıda keçirilən cüdo üzrə dünya çempionatının sonuncu günündə komanda yarışlarına start verilib. Yaponiya, Koreya və Fransa komandaları gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmalardan sonra yarımfinala vəsiqə qazanıblar. Bunun ardınca Almaniya ilə qarşılaşmadan qalib ayrılan Rusiya yığması da yarımfinala çıxıb. Finalda Yaponiya və Fransa komandaları üz-üzə gəliblər.

Azərbaycan yığmasının çıxışlarına gəlincə, Avstriya ilə qarşılaşmada rəqibini 5:1 hesabı ilə məğlub edən cüdoçularımız dörddəbir finalda Yaponiya yığmasına uduzublar. Ancaq seçməmiz təsəlliverici görüşdə iştirak hüququ qazanıb və onun rəqibi Niderland yığması olub. Bu mərhələdə Azərbaycan yığması rəqibindən üstün olmağı bacarıb. Millimiz 4-2 hesabı ilə qalib gələrək çempionatın bürünc medalı uğrunda mübarizəyə vəsiqə qazanıb.

Azərbaycan millisi Bakıda keçirilən cüdo üzrə dünya çempionatında fərdi yarışları 11-ci pillədə başa vurub. Komandamızın üzvlərindən Uşangi Kokauri gümüş, Hidayət Heydərov isə bürünc medal qazanıb.

Bakıdakı dünya çempionatında cəmi 22 ölkə medal qazana bilib, 14 qızıl medalın yarısı Yaponiyanın olub. Qalan qızıl medallardan 2-si Koreya Respublikasına, hərəyə 1 medal Fransa, Gürcüstan, İran, Ukrayna və İspaniyaya nəsib olub. Mundialda 125 ölkədən 800-dək cüdoçu mübarizə aparırdı.



Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan yığmasının üzvləri ilə görüşüblər.

İdmançıları təbrik edən Prezident İlham Əliyev deyib: **"Sizi bu gözəl qələbə münasibətilə təbrik etmək istəyirəm. Bizim idmançılarımız gümüş və bürünc medal qazanıblar. Digər idmançılarımız da çox gözəl döyüş nümayiş etdiriblər, komandamız da qabaqcıl komandalar arasındadır. Bütün bunlar çox böyük nailiyyətlərdir, Azərbaycan cüdo məktəbinin böyük uğurudur və Siz bütün xalqımızı sevindirirsiniz.**

**Cüdo üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi özlüyündə böyük bir hadisədir. Bu, onu göstərir ki, Azərbaycan dünya miqyasında uğurlu inkişaf yolunda çox böyük addımlar atıb. Əlbəttə, siz hamınız istəyirdiniz ki, idmançılarımız gözəl döyüş nümayiş etdirsinlər, belə də oldu. Həm medallar qazanıldı, həm də medal qazanmayan idmançılarımız çox ləyaqətli döyüş nümayiş etdirdilər. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik etmək, sizə yeni uğurlar arzulamaq istəyirəm. Onu da qeyd etməliyəm ki, sizin komanda yarışında döyüşləriniz hələ davam edəcək, siz bürünc medal uğrunda döyüşəcəksiniz, rəqibiniz də çox güclüdür. Əlbəttə, biz hamımız sizə uğurlar arzulayırıq.**

**Onu da bilməliyik ki, bu, idmandır, idmanda qələbə də olur, məğlubiyyət də. Əsas odur ki, bizim idmançılarımız ləyaqətli döyüş nümayiş etdirsinlər. Fəxr edirik ki, bizim görkəmli cüdoçularımız var. Elnur, Nazim, Elxan, Olimpiya, dünya çempionları, Natiq, veteranlar Sizin üçün böyük nümunədir. Mehman da yadımdadır, Olimpiya Oyunlarında biz onun döyüşlərini böyük maraqla izləmişik. Ona görə hesab edirəm ki, bizim cüdoçularımız bundan sonra da ancaq irəliyə gedəcək, xalqımızı, Vətənimizi sevindirəcəklər".**

Sonra çıxışını rus dilində davam etdirən Prezident İlham Əliyev deyib: **"Bizim komandada elə uşaqlar var ki, onlar Azərbaycan dilini o qədər də yaxşı bilmirlər. Buna görə mən onlara da müraciət etmək, onları uğurları, nailiyyətləri münasibətilə təbrik etmək istərdim. Siz ölkəmizi həmişə ləyaqətlə təmsil etmisiniz və xalqımızı sevindirmisiniz. Sizi təbrik edirəm və gələcəkdə sizə uğurlar diləyirəm".**

* * *

Xatirə şəkilləri çəkdirilib.

* * *

Prezident Vladimir Putin də Rusiya yığmasının üzvləri ilə görüşüb.

* * *

Daha sonra Prezident İlham Əliyev çempionatda iştirak edən və mükafat qazanan Azərbaycan yığmasının üzvlərindən, cüdo üzrə Olimpiya çempionlarından və məşqçi heyətindən bir qrupunu Rusiya Prezidenti Vladimir Putinə təqdim edib.

# Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib

## *Forum çərçivəsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuralarının iclası olub, əməkdaşlığa dair Saziş imzalanıb*



Sentyabrın 27-də Bakıda, Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın İqtisadiyyat Nazirliyi və Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən Forumda Azərbaycan və Rusiya tərəfdən dövlət qurumlarının, parlamentlərin, icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar və mətbuat işçiləri iştirak ediblər.




Forum çərçivəsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuralarının geniş tərkibdə iclası keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, sənaye, tikinti, bank, qida, maşınqayırma, metallurgiya, nəqliyyat, əczaçılıq və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.




İclasda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev belə formatda keçirilən tədbirlərin işgüzar dairələr arasında birbaşa əlaqələrin qurulması və qarşılıqlı faydalı layihələrin həyata keçirilməsi üçün mümkün əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi baxımından əlverişli platforma olduğunu vurğulayıb. Nazir qeyd edib ki, Azərbaycan-Rusiya əlaqələri qarşılıqlı hörmət, mehriban qonşuluq prinsiplərinə əsaslanır və strateji tərəfdaşlıq səviyyəsindədir. Dövlətlərimizin başçıları ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına böyük önəm verir. Prezidentlərin, rəsmi nümayəndə heyətlərinin və iş adamlarının çoxsaylı qarşılıqlı səfərləri bunun əyani göstəricisidir. Bu il sentyabrın 1-də Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri çərçivəsində dövlət başçıları ticarət-iqtisadi əlaqələrin hazırkı vəziyyətini hərtərəfli təhlil edib, bu sahədə gələcək əməkdaşlıq üçün prioritetlər müəyyənləşdirilib, 6-sı biznes dairələr arasında olmaqla ümumilikdə 17 sənəd imzalanıb.

**"Azərbaycan-Rusiya əlaqələrinin mühüm istiqamətlərindən biri də ticarət əməkdaşlığıdır və bu sahədə müsbət artım dinamikası müşahidə edilir. Rusiya idxalda Azərbaycanın əsas tərəfdaşı, qeyri-neft məhsullarımızın ixracında isə ilk sıradadır. Ölkələrimiz arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün kompleks tədbirlər görülüb. Rusiya Federasiyasında Azərbaycanın ticarət nümayəndəliyinin yaradılması, Həştərxanda Azərbaycan Biznes Mərkəzinin, Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, qarşılıqlı ticarət missiyalarının həyata keçirilməsi və şirkətlərin ölkələrimizdə keçirilən beynəlxalq sərgilərdə iştirakı belə tədbirlərdəndir. Hazırda Rusiyanın Moskva, Sankt-Peterburq, Yekaterinburq və Həştərxan şəhərlərində Azərbaycanın ticarət, şərab və çay evlərinin açılması istiqamətində tədbirlər görülür",** - deyə Şahin Mustafayev bildirib.

Qarşılıqlı investisiya qoyuluşu sahəsində də fəal əməkdaşlıq həyata keçirildiyini vurğulayan nazir deyib: **"Azərbaycan Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox, Rusiya isə Azərbaycana 4 milyard dollardan artıq investisiya qoyub. Azərbaycanda təqribən 760 Rusiya kapitallı şirkət fəaliyyət göstərir. "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə avtomobil zavodunun Rusiyanın "KamAZ" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin reallaşdırılması, Azərbaycan şirkətlərinin Rusiyada həyata keçirdiyi layihələr, o cümlədən Yessentukidə "İstoçnik" sanatoriya-turizm mərkəzi, Krasnodarda meyvə-tərəvəz konservləri və çay istehsalı zavodu, Jeleznovodskda və Kislovodskda sanatoriya-mehmanxana kompleksinin tikintisi və digər layihələr qarşılıqlı investisiya qoyuluşu sahəsində uğurlu layihələrdəndir".**

Azərbaycanın Rusiya ilə ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu vurğulayan Şahin Mustafayev bu sahədə Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuralarının əhəmiyyətli rol oynadığını qeyd edib, sənaye, energetika, turizm, nəqliyyat, kənd təsərrüfatı, İKT və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb.

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin IX Azərbaycan-Rusiya Regionlararası Forumunun Bakıda keçirilməsindən məmnunluğunu bildirib, ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələrin inkişaf etdiyini, əməkdaşlığın daha da genişləndirilməsi üçün müvafiq tədbirlərin görüldüyünü qeyd edib. O deyib ki, kənd təsərrüfatı, nəqliyyat, sənaye və sair sahələrdə əməkdaşlıq imkanları genişdir və bu baxımdan işgüzar şuraların fəaliyyəti önəmlidir.

M.Oreşkin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafında regional əməkdaşlığın genişləndirilməsinin önəmli olduğunu deyib və bu baxımdan Forumun əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov Rusiyanın Azərbaycanın əsas iqtisadi-ticarət tərəfdaşlarından olduğunu vurğulayıb, təmsil etdiyi İşgüzar Şuranın fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, İşgüzar Şura iş adamları arasında əlaqələri genişləndirmək, işgüzar dairələr və dövlət qurumları arasında dialoq qurmaq, yeni əməkdaşlıq imkanlarını araşdırmaq məqsədilə yaradılıb. Azərbaycan-Rusiya İşgüzar Şurasında kənd təsərrüfatı, sənaye, logistika, nəqliyyat, bank, neft-kimya sahələrində iri, eləcə də kiçik və orta biznes nümayəndələri təmsil olunur.

Səməd Qurbanov Azərbaycan iş adamları tərəfindən Rusiyada həyata keçirilən layihələr barədə də məlumat verib.

Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik isə çıxışında işgüzar şuraların fəaliyyətinin ölkələrimiz arasında əlaqələrin inkişafında əhəmiyyətli olduğunu qeyd edib.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Eldar Əzizov və Rusiya Federasiyasının Novqorod vilayətinin qubernatoru Andrey Nikitin çıxışlarında Bakı və Novqorodun potensialı, bu şəhərlərdə görülən işlər və regional əməkdaşlıq imkanları barədə məlumat veriblər.

"Azərmaş" şirkətinin sədri Emin Axundov, "Qazprombank"ın vitse-prezidenti Aleksey Çiçkanov və digər şirkət təmsilçiləri isə ölkələrimiz arasında müvafiq sahələrdə əməkdaşlıq, reallaşdırılan birgə layihələr və əlaqələrin genişləndirilməsi perspektivləri barədə danışıblar.

Sonra Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuraları arasında əməkdaşlığa dair Saziş imzalanıb. Sənədi Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov və Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik imzalayıblar.

Forum işini Heydər Əliyev Mərkəzində və Bakı Biznes Mərkəzində təşkil olunmuş 7 istiqamət üzrə (sənaye və energetika, turizm, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, nəqliyyat və tranzit, qadın sahibkarlığı və humanitar sahələrdə) "dəyirmi masa"larla və plenar iclasla davam etdirib.

# Azərbaycan-Rusiya Regionlararası Forumu işini plenar iclasla başa çatdırıb



Doqquzuncu Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılışı mərasimi plenar iclasla davam edib.

AZƏRTAC xəbər verir ki, plenar sessiya Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkinin sədrliyi ilə keçirilib.

Nazir Şahin Mustafayev bildirib ki, Azərbaycan və Rusiyanın dövlət başçıları arasındakı yüksək səviyyəli münasibətlər iki ölkənin əməkdaşlığının strateji xarakter almasına təkan verib. Rusiyanın Azərbaycanın idxal üzrə əsas tərəfdaşı olduğunu deyən nazir, həmçinin qeyri-neft məhsullarının ixracı sahəsində də Rusiyanın Azərbaycan üçün öncül yerdə dayandığını söyləyib. Azərbaycan indiyədək Rusiya iqtisadiyyatına 1 milyard dollar, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard dollar sərmayə yatırıb. Azərbaycanda Rusiya kapitallı 760 şirkət fəaliyyət göstərir.

Nəqliyyat və daşımalar sahəsindəki əlaqələrə də toxunan Şahin Mustafayev Şimal-Cənub nəqliyyat marşrutunun hər iki ölkə üçün dividendlər gətirdiyini diqqətə çatdırıb. O, Cənubi Asiyadan Rusiyaya yük daşımaların dinamik şəkildə artdığını qeyd edib.

Humanitar sahədə də əməkdaşlığın genişləndiyini söyləyən nazir bu sahədə əlaqələrin gücləndirilməsində Heydər Əliyev Fondunun böyük töhfələrinin olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycanda rus dilinin tədris olunduğu 340-dan çox ümumtəhsil məktəbi, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları, Bakı Slavyan Universiteti fəaliyyət göstərir.

Azərbaycanla Rusiyanı tarixi əlaqələr birləşdirdiyini deyən rusiyalı nazir Maksim Oreşkin qeyd edib ki, mövcud imkanlar iqtisadi əməkdaşlığı daha da genişləndirməyə şərait yaradır. Ona görə də dövlət başçıları qarşımızda bu əməkdaşlığı yeni səviyyəyə qaldırmaq vəzifəsi qoyublar. Forumda prezidentlərin iştirakı onun əhəmiyyətini daha da artırır. **"Biz gömrük sahəsində əlaqələrə diqqət ayırırıq, tariflər aşağı salınıb. Hətta yaşıl dəhlizin yaradılması istiqamətində irəli gedirik. Qarşımızda çox böyük imkanlar və görülməli işlər var. Böyük və kiçik biznesin əlaqələrinin inkişafına diqqəti artırmaq bizim məqsədlərimizdən biridir",** - deyə nazir bildirib.

Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Əli Hüseynli bu gün ikitərəfli münasibətlərin regionda bütün əlaqələrə təsir göstərdiyini, yeni əməkdaşlıq formatları yaratdığını deyib. Ölkələrimizin parlamentləri arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Əli Hüseynli Azərbaycan parlamentinin Rusiyanın regional qanunverici orqanları ilə də sıx əlaqələr qurduğunu deyib. O qeyd edib ki, Azərbaycan Rusiyanın regionda yeganə strateji tərəfdaşıdır.

Azərbaycan-Rusiya İşgüzar Şurasının məqsədinin iki ölkənin biznes nümayəndələri arasında əlaqələrin qurulması və genişlənməsi olduğunu deyən qurumun sədri Səməd Qurbanov bu məqsədlə görüşlərin, konfransların və forumların təşkil edildiyini qeyd edib. O, Şuranın fəaliyyəti haqqında geniş məlumat verib, burada müxtəlif sahələrə aid işgüzar dairələrin təmsil olunduğunu söyləyib. Səməd Qurbanov Azərbaycan şirkətlərinin Rusiya regionlarında fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində fəaliyyət göstərdiklərini bildirərək rusiyalı biznesmenləri hərtərəfli əməkdaşlığa dəvət edib.

Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repkin müştərək layihələrin sayının artırılması üçün bir neçə amilin əsas rol oynadığını qeyd edib. Onun sözlərinə görə, bunun üçün ikitərəfli görüşlərin sayını artırmaq, atılacaq addımların koordinasiyasına diqqət yönəltmək lazımdır. Aleksey Repkin deyib ki, hər iki ölkə sənayenin şaxələndirilməsinə təkan verməlidir: **"Yüksək texnologiyalar sahəsində biz yaxşı əməkdaşlıq edə bilərik. Eyni zamanda, Rusiya regionları ilə Azərbaycanın əlaqələrinin daha da artırılmasına çalışmalıyıq. Burada Rusiyanın bir çox regionlarından nümayəndələr var və düşünürəm ki, onlar Azərbaycanda öz tərəfdaşlarını tapa biləcəklər".**

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Eldar Əzizov dövlət başçıları arasındakı yüksək səviyyəli əlaqələrin iki ölkə arasında regionlararası əməkdaşlığın inkişafına güclü təkan verdiyini bildirib. O, Bakının son illər Prezident İlham Əliyevin diqqəti sayəsində sürətlə inkişaf etdiyini, burada yeni müəssisələrin yarandığını, paytaxtın məşhur turizm şəhərlərindən birinə çevrildiyini söyləyib. Eldar Əzizov Bakının Həştərxan, Volqoqrad və digər Rusiya şəhərləri ilə sıx əməkdaşlığı haqqında məlumat verib.

Plenar iclasda Azərbaycanın Gəncə şəhərinin, Şəki, İmişli rayonlarının icra hakimiyyətlərinin başçıları Niyazi Bayramov, Elxan Usubov və Vilyam Hacıyev, Rusiya Federasiyasının Dağıstan Respublikasının başçısı Vladimir Vasilyev, Stavropol diyarının qubernatoru Vladimir Vladimirov, Novqorod vilayətinin qubernatoru Andrey Nikitin, Arxangelsk vilayətinin qubernatoru İqır Arlov çıxış edərək təmsil etdikləri regionların iqtisadi, turizm imkanları, mədəniyyəti haqqında məlumat veriblər. Çıxışlarda bu regionlar arasında əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğu diqqətə çatdırılıb.



Sonra Azərbaycanın və Rusiyanın şirkətləri və biznes təşkilatları arasında sənədlərin imzalanması mərasimi olub. "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "R-Farm" SC arasında Azərbaycanda əczaçılıq məhsullarının istehsalı və paylanması sahəsində əməkdaşlıq barədə, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə "İşgüzar Rusiya" Ümumrusiya İctimai Təşkilatı arasında əməkdaşlıq haqqında, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Rusiya-Azərbaycan İşgüzar Şurası arasında əməkdaşlıq barədə, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Rusiya-Azərbaycan İşgüzar Şurası arasında əməkdaşlıq haqqında, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə İslam Biznesi Beynəlxalq Assosiasiyası arasında əməkdaşlıq haqqında, Azərbaycanın "Khan-El" MMC və Rusiyanın "Qud-Fud Postavka" MMC şirkətləri arasında Rusiyaya fındıq ixracına dair, Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası və "Biznes qadınları" Ümumrusiya İctimai Təşkilatı arasında əməkdaşlıq barədə, Azərbaycan Respublikasının "Dövlət Aqrar Ticarət Şirkəti" MMC və Rusiyanın Kənd Təsərrüfatı Nazirliyinin Analitik Mərkəzi Federal Dövlət Büdcə Təşkilatı arasında əməkdaşlıq haqqında, Azərbaycanın "Azhazelnut" MMC və Rusiyanın "Frutimpex" MMC arasında Rusiyaya fındıq ixracına dair, "Azər Sharab NM" MMC və "Del Monte" MMC arasında spirtli içkilərin Rusiyaya ixracı barədə, "Vefa Collection" MMC və "Delikatesoff" MMC arasında əməkdaşlıq haqqında, Azərbaycan Turizm Assosiasiyası və "Mahaçqala Beynəlxalq Hava Limanı" Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq barədə, Bakı şəhərinin Nərimanov rayon İcra Hakimiyyəti və Rusiyanın Həştərxan vilayəti hökuməti arasında əməkdaşlıq haqqında memorandumlar, "Grovv Group Azerbaijan" MMC və "Essen Logistic" MMC arasında pomidor satışına dair, Azərbaycanın "Mətanət-A" MMC və Rusiyanın "Matanat" MMC şirkətləri arasında Rusiyada quru inşaat qarışıqlarının istehsalı zavodunun tikintisinə dair, "Karvan-L" MMC və "TexSportServis" MMC arasında xidmət göstərilməsinə dair, Azərbaycanın "CTC Holdinq" ASC və Rusiyanın "Komman Group" MMC arasında ölkəmizə avadanlıqların tədarükünə dair müqavilələr imzalanıb.

Plenar iclasda "dəyirmi masa"ların moderatorlarının hesabatı dinlənilib.

Bununla doqquzuncu Azərbaycan-Rusiya Regionlararası Forumu başa çatıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Küveyt Dövlətinin ölkəmizdəki səfiri ilə görüşüb

Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Küveyt Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz əl-Rumi ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonağı salamlayıb və onu Naxçıvanda görməkdən məmnunluğunu bildirib. Muxtar respublikanın inkişafı sahəsində görülən işlərdən bəhs edən Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Küveyt Dövləti arasında qarşılıqlı əlaqələrin inkişafı üçün imkanların olduğunu diqqətə çatdırıb, Səud Əbdüləziz əl-Ruminin səfərinin bu baxımdan səmərəli olacağına əminliyini ifadə edib.



Səmimi qəbula görə minnətdarlıq edən Səud Əbdüləziz əl-Rumi muxtar respublikanın istehsal müəssisələri və tarixi abidələri, o cümlədən Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlığın onda böyük təəssürat yaratdığını bildirib. Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini qeyd edən diplomat bu sahədə səylərin artırılacağını vurğulayıb.

Görüşdə gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı başlayıb

## Festival çərçivəsində Şamaxıda şeir-musiqi məclisi keçirilib






Sentyabrın 27-də Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalına start verilib. Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən festivalın ideya müəllifi Fondun vitse-prezidenti Leyla Əliyevadır. Möhtəşəm söz-sənət bayramı dahi sənətkarın doğulduğu Şamaxı şəhərindən start götürüb və dörd gün davam edəcək.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, festivalın birinci günü Şamaxıda İmadəddin Nəsiminin büstü önündə şeir-musiqi məclisi təşkil olunub. İmadəddin Nəsiminin (1369-1417) fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm..." şüarları ilə təşkil olunan mərasimdə Azərbaycanın tanınmış alimləri, yazıçı və şairləri, mədəniyyət və incəsənət xadimləri, xarici ölkələrdən, o cümlədən Rusiyadan, Çindən, ərəb ölkələrindən gələn qonaqlar iştirak ediblər.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev Şamaxının qədim tarixi, böyük sənətkarları barədə danışıb, dahi mütəfəkkir İmadəddin Nəsiminin ədəbi yaradıcılığından, fəlsəfi baxışlarından bəhs edib. Vurğulayıb ki, Nəsiminin adı Azərbaycan xalqı üçün həmişə iftixar mənbəyi olacaq.

Sonra söz musiqiçilərə verilib. Xalq artisti Alim Qasımovun ifasında səslənən muğamlar iştirakçılarda Nəsimi dünyasının möcüzələrini yaşadıb.

Daha sonra festivalın iştirakçıları İmadəddin Nəsiminin qardaşı Şaxəndanın, habelə görkəmli şair Seyd Əzim Şirvaninin dəfn olunduqları Şaxəndan qəbiristanlığını ziyarət ediblər. Hələbdən gələn, İmadəddin Nəsiminin nəslindən olan Məhəmməd Nəsimi burada böyük şair və mütəfəkkirin qəbiri üzərində dua oxuyub. O, bu anı ona bəxş edən festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna və Fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlığını bildirib.

# Vatikanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd edilib






Heydər Əliyev Fondunun və ölkəmizin Fransa və Müqəddəs Taxt-Tacdakı səfirliyinin təşkilatçılığı ilə Vatikanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd olunub.







AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr edilmiş foto və video materiallardan ibarət sərgi ilə tanış olublar. Birinci respublikanın təsisçilərinin görüşlərini, Müstəqillik Bəyannaməsini, iqtisadiyyatımızın şah damarı- neft sənayesinin inkişafını əks etdirən sərgi tədbir iştirakçılarının böyük marağına səbəb olub. İştirakçılara italyan dilində ölkəmizin tarixinə dair nəşrlər təqdim edilib.

Müqəddəs Taxt-Tacın "Cancelleria" Sarayında təşkil olunmuş ziyafətdə ölkəmizin Fransa və Müqəddəs Taxt-Tacdakı səfiri Rəhman Mustafayev çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından və onun qısa müddət ərzində əldə etdiyi nailiyyətlərdən, bütün sahələrdə həyata keçirilmiş islahatlardan, quruculuq işlərindən söz açıb.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını, Azərbaycanda həmin dövr üçün mütərəqqi hesab olunan dövlət institutlarının, çoxpartiyalı sistemin, plüralist parlamentin təsis edildiyini, etnik mənsubiyyətindən, cinsindən, dinindən və sosial vəziyyətindən asılı olmayaraq, vətəndaşların bərabər hüquqlara malik olduğunu qeyd edib. Səfir Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövr ərzində qazanılan nailiyyətlərdən bəhs edərək, dövlət quruculuğu sahəsində həyata keçirilmiş tədbirlərin, ölkənin himninin, bayrağının və gerbinin təsis olunmasının Azərbaycan tarixində yeni şərəfli səhifə açdığını bildirib. Azərbaycan Xalq Cümhuriyyətinin ən mühüm nailiyyətlərindən birinin qadınlara səsvermə hüququnun verilməsi olduğunu vurğulayıb. Bildirilib ki, birinci respublikanın nailiyyətlərini izləyən böyük dövlətlərin nümayəndələri onun rəhbərlərini alqışlayıblar. 1919-cu ildə Britaniyanın Qafqaz üzrə ali komissarı Oliver Uoldrop deyib ki, Azərbaycan Zaqafqaziyanın digər etnik qrupları üçün ən yaxşı nümunədir.

Səfir əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində bu gün ölkəmizin beynəlxalq aləmdə layiqli yer tutduğunu vurğulayıb. O, müasir müstəqil Azərbaycanın iqtisadi inkişafı, sabitliyi və balanslaşdırılmış xarici siyasəti haqqında danışıb. Qeyd edib ki, Ermənistanın ölkəmizə qarşı təcavüzünə baxmayaraq, Azərbaycan regionun lider dövlətinə çevrilib, Bakı qitələri birləşdirən böyük layihələrə imza atıb.

2019-cu ilin yanvar ayında Müqəddəs Taxt-Tac ilə ölkəmiz arasındakı əlaqələrin 25 ilinin tamam olacağını bildirən R.Mustafayev bu müddət ərzində ikitərəfli əlaqələrin bütün sahələrdə yüksək səviyyəyə çatdığını və dinamik inkişaf etdiyini vurğulayıb. Qarşılıqlı hörmətə, fəal dialoqa və qarşılıqlı faydalı əməkdaşlığa əsaslandığını diqqətə çatdırıb.

Siyasi sahədə dövlət rəhbərlərinin qarşılıqlı səfərlərinin, xüsusilə də 2002-ci ildə Roma Papası II İohan Pavelin və 2016-cı ildə Papa Fransiskin ölkəmizə səfərləri, eləcə də Vatikanın xarici işlər naziri, arxiyepiskop Pol Riçard Qallaxerin bu il ölkəmizə səfəri çərçivəsində ikitərəfli və beynəlxalq münasibətlər sahəsində aktual məsələlərin müzakirə olunduğunu bildirib. Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tac arasında sıx əməkdaşlıqdan və bu birgə fəaliyyətin bəhrələrindən danışıb. Əməkdaşlıq çərçivəsində Vatikanın tarixi və mədəniyyətinin nadir rəmzlərinin bərpası, Müqəddəs Marçellinio və Pietro katakombaları, eləcə də Vatikan muzeyində Zevsin heykəlinin, Sikstin kapellasında divar şkaflarının bərpa edildiyini diqqətə çatdırıb.

Heydər Əliyev Fondu tərəfindən bərpa edilən, 2 min ildən artıq yaşı olan Müqəddəs Sebastian katakombalarının açılışından danışıb.

Elmi sahədə Vatikan Mədəniyyət Şurasının və Apostol kitabxanasının dəstəyi ilə arxiv tədqiqatlarının aparıldığını, Orta əsrlər Azərbaycan mütəfəkkirləri Nizami, Füzuli və Nəsimi haqqında oxuculara məlum olmayan yeni məlumatların əldə edildiyini bildirib. Ölkəmizin Müqəddəs Taxt-Tacla çoxşaxəli əməkdaşlığını və dialoq yolunu davam etdirmək əzmində olduğunu vurğulayıb.

Müqəddəs Taxt-Tacın Mədəniyyət işləri üzrə şuranın sədri, kardinal Canfranko Ravazi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikan səfərinə toxunaraq, iki dövlət arasında siyasi, mədəniyyətlərarası və dinlərarası dialoq sahələrində əlaqələrin yüksək səviyyəsindən söz açıb. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən mühüm layihələr haqqında ətraflı məlumat verib. Əhalisinin əksəriyyəti müsəlman olmasına baxmayaraq, ölkəmizin xristian dini mədəni irs abidələrinin bərpasına dəstək verməsini dinlərarası dialoqun bariz nümunəsi olduğunu vurğulayıb.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş ziyafət Xalq artisti Ənvər Sadıqov və Əməkdar artist Emil Əfrasiyabın rəhbərliyi ilə Azərbaycan incəsənət ustalarının ifasında milli musiqi proqramı ilə davam edib.

Tədbir çərçivəsində ziyafət və sərgi salonlarında böyük ekranda ölkəmizin mədəniyyətindən, təbiətindən, iqtisadi uğurlarından, ev sahibliyi etdiyi böyük beynəlxalq tədbirlərdən bəhs edən sənədli film nümayiş olunub.

Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian kilsəsində bərpa edilmiş katakombalarla bağlı nəşrlər tədbir iştirakçılarına hədiyyə edilib.

# Bakıda "Milli-mənəvi dəyərlərin təbliğində gənclər təşkilatlarının rolu" mövzusunda konfrans keçirilib

Sentyabrın 27-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində gənclər təşkilatlarının rolu" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə DQİDK və Gənclər Fondunun rəhbərliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Qafqaz Müsəlmanları İdarəsi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəsmiləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri, QHT nümayəndələri və gənclər iştirak ediblər.






DQİDK-nın sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə keçirilən konfransda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan milli-mənəvi dəyərlərini və xalqımıza məxsus xüsusiyyətləri qoruyub saxlayır. Milli-mənəvi dəyərlərimizə dil, din, ailə, milli mənsubiyyət, müstəqillik, azərbaycançılıq ideologiyası və sair bu kimi önəmli məfhumlar daxildir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bu işlər davam etdiriləcək. Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, dini, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. Dövlət Komitəsinin sədri dövlət başçısı tərəfindən Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını bu sahəyə diqqət və qayğının növbəti nümunəsi adlandırıb. Fondun Azərbaycan xalqına məxsus mənəvi və milli dəyərlərin gənc nəslə daha geniş şəkildə çatdırılması istiqamətində işlər həyata keçirdiyini deyib.

Milli-mənəvi dəyərlərimizi təhdid edən müxtəlif amillərlə də rastlaşdığımızı bildirən M.Qurbanlı onların xarici təsirlərə məruz qaldığını qeyd edib. Bu dəyərlərin qorunmasının və gənc nəslə çatdırılmasının ən ümdə vəzifələrdən biri olduğunu deyən DQİDK sədri bu istiqamətdə gənclər təşkilatlarının da fəallıq göstərməsinin önəminə toxunub. O, tarixdən gələn bu xüsusiyyətlərin gələcək nəsillərə ötürülməsi sahəsində müvafiq qurumların həyata keçirdiyi tədbirlərin mühüm əhəmiyyətə malik olduğunu söyləyib.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov çıxışında informasiya texnologiyalarının inkişaf etdiyi bir zamanda mənəvi dəyərlərin qorunması işinin bir qədər mürəkkəbləşdiyini qeyd edib. F.Cəfərovun sözlərinə görə, dünyada gedən proseslərə diqqət yetirdikdə görmək olur ki, bütün münaqişələrin kökündə mənəvi dəyərlərin təbliği işinin düzgün aparılmaması durur. O əlavə edib ki, Ulu öndər Heydər Əliyev mənəvi dəyərlərin təbliği və təşviqi sahəsində mühüm siyasət yürüdüb. Bu siyasət bu gün də Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. F.Cəfərov onu da vurğulayıb ki, Gənclər Fondu bu istiqamətdə gənclər təşkilatlarının yüzlərlə layihəsinə dəstək verir.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov bildirib ki, təmsil etdiyi qurumun fəaliyyət istiqamətinin əsas hissəsini bu ali dəyərlərin təbliği təşkil edir. Dövlətin bu sahəyə xüsusi diqqət və dəstək verdiyini bildirən S. Həsənov Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının, din xadimlərinə maddi dəstək göstərilməsin bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin məsləhətçisi Aydan Kərimli qeyd edib ki, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. O, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb. Bu istiqamətdə müvafiq qurumların fəaliyyət göstərdiyini, dövlət proqramlarının qəbul edildiyini bildirib. Milli-mənəvi dəyərlərin təbliğində gənclərin potensialından istifadənin əhəmiyyətinə toxunan Aydan Kərimli bu sahədə gənclər təşkilatlarını fəal olmağa çağırıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov, DQİDK yanında İctimai Şuranın sədri, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının icraçı direktoru Faiq Məmmədov çıxışlarında bildiriblər ki, milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyükdür. Çıxışlarda o da vurğulanıb ki, informasiya texnologiyalarının sürətli inkişafı müsbət dəyişikliklərlə yanaşı, milli-mənəvi dəyərlər sistemini təhlükə altına alır. Natiqlər, eyni zamanda, milli-mənəvi dəyərlərin təbliği istiqamətində sosial şəbəkələrin imkanlarından istifadənin, qısametrajlı filmlərin çəkilməsinin önəminə toxunublar.

Konfrans milli-mənəvi irsimizin düzgün təbliği və bu sahədə gənclər təşkilatlarının üzərinə düşən vəzifələrin müzakirəsi ilə yekunlaşıb.

# "Gömrük islahatları və modernləşdirmə" mövzusunda təlimin üçüncü günündə jurnalistlərlə fikir mübadiləsi aparılıb





"Gömrük islahatları və modernləşdirmə" mövzusunda təlimin üçüncü günündə jurnalistlərlə fikir mübadiləsi aparılıb.

AZƏRTAC xəbər verir ki, Dövlət Gömrük Komitəsinin (DGK) kütləvi informasiya vasitələrinin nümayəndələri üçün Qusar rayonunda təşkil etdiyi "Gömrük islahatları və modernləşdirmə" mövzusunda təlimin üçüncü günündə jurnalistlər "Risk analizləri və Risklərin idarə edilməsi", "Gömrük statistikası necə aparılır, metodologiya, statistik məlumatların yerləşdirilməsi və istifadə üsulları" və "Media orqanlarında gedən yanlışlıqlar və düzgün anlaşılmayan ifadələr" mövzularında məlumatlandırılıb.

"Risk analizləri və risklərin idarə edilməsi" mövzusunda çıxış edən Gömrük Risklərinin İdarə Olunması və Audit Baş İdarəsinin Gömrük risklərinin strateji araşdırılması şöbəsinin əməkdaşı Saleh Xəlilli risk analizlərinin aparılması qaydalarından, bu analizlərin aparılmasının gömrük işinə göstərdiyi təsirlərdən danışıb.

"Gömrük statistikası necə aparılır, metodologiya, statistik məlumatların yerləşdirilməsi və istifadə üsulları" mövzusunda məruzəçi Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin Gömrük Statistikası İdarəsinin rəisi Əzizağa Əhmədov isə gömrük statistikasına daxil olan və olmayan mallar barədə məlumat verib, statistikanın hazırlanması metodları ilə bağlı çıxış edib.

Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Natiq Axundov "Media orqanlarında gedən yanlışlıqlar və düzgün anlaşılmayan ifadələr" mövzusunda jurnalistlərlə fikir mübadiləsi aparıb. Bildirib ki, DGK daim jurnalistlərlə sıx əlaqədə olur, xəbərlərin dolğun və dəqiq çatdırılması üçün şərait yaradır, jurnalistlərin gömrük sahəsində biliklərinin artırılması istiqamətində bir sıra seminarlar, təlimlər və press-turlar təşkil edir. Buna baxmayaraq, bir sıra kütləvi informasiya vasitələrində yanlış xəbərlər dərc edilir ki, bunun da əsas səbəblərindən biri məlumatın dəqiqləşdirilmədən dərc edilməsi və gömrük sahəsində işlədilən bəzi ifadələrin düzgün mənimsənilməməsidir.

Təqdimatlar zamanı iştirakçıların təklifləri dinlənilib, fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar ətraflı cavablandırılıb.

Xatırladaq ki, sentyabrın 25-də başlayan təlim ayın 29-dək davam edəcək.

# YAP Abşeron rayon təşkilatının yaradılmasının 25 illiyi qeyd edilib

Sentyabrın 27-də Xırdalandakı Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatının yaradılmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib.



Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev rayon təşkilatının fəaliyyətinə nəzər salıb. Bildirib ki, sıralarında 10 mindən çox üzvü birləşdirən rayon təşkilatı öz fəaliyyətini partiyanın Nizamnamə və Proqramına, rəhbərliyin tapşırıq və tövsiyələrinə, eləcə də üzvlərin təşəbbüsünə



əsaslanaraq uğurla qurub. Bu gün rayon təşkilatı həyata keçirdiyi tədbirlərlə, gördüyü işlərlə daha böyük uğurları hədəfləyib. B.Vəliyev xüsusi olaraq vurğulayıb ki, partiyanın Abşeron rayon təşkilatı respublikada ilk yaranmış təşkilatlardandır. 1993-cü ilin fevral ayının 22-də təsis olunan, hazırda 10000 nəfərə yaxın partiya üzvünü və 122 ərazi ilk partiya təşkilatını birləşdirən Abşeron rayon təşkilatı sıralarını ildən-ilə genişləndirir.

YAP Abşeron rayon təşkilatının Şura üzvü Nuru Nadirov YAP-ın yaradılmasının tarixi zərurət olduğunu bildirərək, o zamankı siyasi vəziyyətə diqqət yönəldib. Qeyd edib ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda yaşanan, xalqımızın düşdüyü çox ağır vəziyyət hər kəsin yadındadır. Çətin bir vəziyyətdə dövlətimizi və xalqımızı xilas edə biləcək siyasi liderə ehtiyac var idi. Belə bir vəziyyətdə dövlətçiliyimizi və xalqımızı qorumağı ancaq Heydər Əliyev kimi dahi bir şəxsiyyət bacara bilərdi. Həmin vaxt Ulu öndər Heydər Əliyev xalqının səsinə səs verdi və yeni bir siyasi partiyanın - Yeni Azərbaycan Partiyasının yaradılmasına, ona rəhbərlik etməyə razılıq verdi.

Rayon təşkilatının Qadınlar Şurasının sədri Təyyubə Hüseynova tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında qadınların da rolu durmadan artmaqdadır. YAP Abşeron rayon təşkilatının 10 minə yaxın partiya üzvünün 65 faizini qadınlar təşkil edir. Ölkəmizdə elə bir sahə yoxdur ki, orada qadınlar çalışmasın. Onlar öz vətəndaş mövqeyini əmək fəaliyyətlərini uğurla davam etdirməkdə görürlər. Bir sözlə, Azərbaycan qadınları tükənməz enerji ilə doğma ailələrində ömürlərinin şərəfli səhifələrini yaşamaqla bərabər, cəmiyyətdəki aktual problemlərin həllindən də kənarda qalmırlar.

Sonra çıxış edən Milli Məclisin deputatı Sevinc Fətəliyeva qeyd edib ki, Ulu öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub: **"Məhz Heydər Əliyevin siyasi kursu nəticəsində Azərbaycan özünün iqtisadi və mədəni potensialından istifadə edərək, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynayıb və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib".**

Onun sözlərinə görə, bu gün Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləməklə, insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır: **"Ulu öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda Onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir".**

Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov Ulu öndər Heydər Əliyevin Naxçıvanda çalışdığı illərə nəzər salıb. O, həmin çətin, ağır günlərdə Azərbaycan xalqının Heydər Əliyevə əsl qəhrəman, xilaskar kimi baxdığını və Onun ölkəmizə rəhbərlik edəcəyi təqdirdə bütün problemlərimizin öz həllini tapacağına ümidlər bəslədiyini söyləyib: **"Bəli, xalq öz inamında və seçimində yanılmamışdı. 91 nəfər Azərbaycan ziyalısı xalqın ümumilikdə istəyini müraciətlərində əks etdirərək Ümummilli lider Heydər Əliyevə ünvanladı. Dahi şəxsiyyət Heydər Əliyevin müraciətə müsbət cavabı, eyni zamanda, Onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması dövlət müstəqilliyimizin qorunmasına, möhkəmləndirilməsinə və inkişafına rəvac verdi. O vaxtdan ötən müddət ərzində istər partiyamız, istərsə də onun rayon təşkilatları uğurla inkişaf etməyə başladı".**

YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, 1991-ci ildə müstəqilliyini bərpa edən ölkəmiz ötən müddət ərzində ortaya 100 il müstəqillik tarixinə malik olan ölkələrdən daha yüksək təcrübə qoya bilib. Ölkəmiz XX əsrin 90-cı illərinin əvvəllərində dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz həmin dövrdə siyasi və silahlı qruplaşmaların fəaliyyəti nəticəsində Azərbaycanda özbaşınalıq hökm sürürdü. O dövrdə iqtidarda olan vəzifə hərislərinin yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz ağır vəziyyətə düşmüşdü. Vətəndaş müharibəsi başlamışdı. Yalnız xalqın təkidli tələbi ilə Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı nəticəsində Azərbaycan bütün bu bəlalardan xilas ola bildi. İqtisadi inkişafın təməl prinsipləri yarandı, uğurlu neft müqavilələri imzalandı, vahid ordu formalaşdırıldı, ictimai-siyasi sabitlik yarandı.

V.Rəhimzadə vurğulayıb ki, Ümummilli liderin hakimiyyətə qayıdışından sonra "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bugünkü güclü iqtisadiyyatının təməlini qoyub: **"Məhz Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafının əsası qoyuldu. YAP öz qətiyyətli mövqeyi ilə xalqa xidmət nümunəsini ortaya qoyur. Partiyamızın özünəməxsus dəyərləri, xalqımız, dövlətimiz üçün böyük töhfələri var".**

Abşeron rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova dövlətimizin hərtərəfli inkişafı və xalqımızın tərəqqisi naminə həyata keçirilən islahatların ölkəmizin daha böyük və əsaslı uğurlarına zəmin yaratdığını bildirib. O, bu gün ölkəmizin dünyada söz sahibi olduğunu, bütün sahələr üzrə uğurlara imza atdığını qeyd edərək, bütün bunları iqtidar-xalq birliyinin, həmrəyliyinin məntiqi nəticəsi adlandırıb. İradə Gülməmmədova qeyd edib ki, Yeni Azərbaycan Partiyası qısa bir müddətdə geniş şöhrət qazanaraq cəmiyyətin bütün təbəqələrindən olan sağlam qüvvələri öz ətrafında birləşdirə bildi, ümumxalq partiyasına çevrildi. Bu gün YAP Azərbaycan xalqı tərəfindən dəstəklənən, böyük nüfuza malik olan qüdrətli siyasi qüvvədir.

Sonda YAP Abşeron rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə və rayon təşkilatının yaradılmasının 25 illik yubileyi münasibətilə bir qrup partiya fəalı təltif olunub. YAP sıralarına yeni qəbul edilən bir qrup gəncə isə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

# Elçin Mirzəbəyli: Ermənistan rəsmilərinin Trampın Nyu-Yorkda Paşinyanla görüşməməsinə verdikləri şərh gülüncdür

Ermənistanın xarici siyasət idarəsi və erməni diasporu uzun müddət idi ki, BMT Baş Assambleyasının sessiyası çərçivəsində Paşinyanın ABŞ Prezidenti Donald Tramp ilə görüşünün təşkil edilməsinə cəhd göstərirdi. ABŞ-ın kütləvi informasiya vasitələrində, xüsusilə də internet resurslarında Nikol Paşinyanın siyasi obrazına "demokrat" yamağı vurmaqla diqqəti hakimiyyətə, sözün bütün mənalarında, küçədən gələn baş nazirin stilist köməkçisinin yaratdığı personasına diqqət çəkməyə çalışırdılar. Lakin aparılan total təbliğatın da bir nəticəsi olmadı. Bir neçə gün öncə Paşinyanın sözçüləri hətta səfərin təxirə salınacağı barədə də mətbuata açıqlama vermişdilər. Sözünün əvvəli ilə sonu düz gəlməyən Paşinyan və komandası bu dəfə də elan etdiklərinin əksinə hərəkət etdilər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib.



Ekspert qeyd edib ki, Paşinyan böyük ümidlərlə ABŞ-a getdi, amma Donald Tramp daha ciddi məsələlərlə məşğul olduğu üçün Ermənistanın baş nazirinə hətta bir neçə dəqiqəlik vaxt ayırmaq istəmədi. Ermənistan rəsmiləri isə gülünc doğuran şərh verərək görüşün baş tutmamasını həm də Paşinyanın "gərgin iş rejimi" ilə əlaqələndirdilər.

Məsələnin ən maraqlı tərəfi də elə burasındadır. Görəsən, Nikol Paşinyan hansı vacib işlərlə məşğul olub ki, onun da Donald Trampla görüşməyə vaxtı olmayıb. Bu adamla BMT Baş Assambleyasının sessiyası çərçivəsində bir kimsə görüşməyib, daha doğrusu, görüşmək istəməyib. Niyə də görüşsünlər axı? Nyu-York kimi ən müxtəlif, çeşidli və fərqli zövqlərə uyğun şou proqramların nümayiş etdirildiyi bir məkanda Paşinyanın əyalət səviyyəli erməni hiyləgərliyindən uzağa getməyən şoumenliyinə kim ehtiyac duya bilər ki?! Görünür, ABŞ Prezidenti də Paşinyanla görüşmək istəməyən digər dövlət və hökumət başçıları kimi zövqünü korlamaq istəməyib. Əgər ABŞ-da ənənəvi Şükran Günü bayramı olsaydı, o zaman bəlkə də Paşinyanın hind toyuqları ilə necə oynadığına tamaşa etmək olardı. Heyvanlarla, quşlarla oynamaq Ermənistanın baş nazirinin bacardığı ən yaxşı işdir. Amma nə etmək olar, Şükran Gününə hələ çox var...

# Yeni ekspozisiyalar Şamaxı Tarix-Diyarşünaslıq Muzeyini daha da zənginləşdirib





Sentyabrın 27-də Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin yeni ekspozisiyalarla tərtibatından sonra açılışı olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində Nəsimi - şeir, incəsənət və mədəniyyət festivalına gələn mədəniyyət və incəsənət xadimləri, xarici qonaqlar da iştirak ediblər.

Qonaqlar xoş musiqi, rəqs qrupunun çıxışları ilə qarşılanıb.

Rayon icra hakimiyyətinin başçısı Asif Ağayev tədbir iştirakçılarını salamlayaraq, Şamaxı Tarix-Diyarşünaslıq Muzeyində Azərbaycanın qədim, orta əsrlər və müasir tarixinə dair zəngin eksponatların olduğunu diqqətə çatdırıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin, ümumilikdə bütün muzeylərimizin yeni eksponatlar hesabına daha da zənginləşdiyini bildirib, bu sahədə Heydər Əliyev Fondunun xidmətlərini vurğulayıb.

Sonra qonaqlara yeni eksponatlar, habelə ayrı-ayrı bölmələrdə nümayiş etdirilən eksponatlar barədə məlumat verilib.

Qeyd edək ki, dünya muzey standartları əsasında hazırlanan bu informativ ekspozisiya tarixi ardıcıllıqla, o cümlədən elektron vasitələrdən istifadə edilməklə, Azərbaycan və ingilis dillərində təqdim olunur. Hazırda muzeyin yeddi mindən çox eksponatı var və ekspozisiyada Şamaxının ən qədim dövrlərdən başlayaraq son zamana qədər olan tarixi, arxeoloji tapıntı nümunələri və maddi-mədəniyyət abidələri, eləcə də etnoqrafik, epiqrafik və numizmatika nümunələri nümayiş etdirilir. Heydər Əliyev Fondunun Şamaxını təsvir edən XVII əsrə aid üç ədəd qravürü hədiyyə etməsi muzey üçün əlamətdar hadisə olub. Onlar Avropa ölkələrindən əldə edilərək Azərbaycana gətirilib. Qravürlər XVII əsrin məşhur alman səyyah və coğrafiyaçısı Adam Oleariyə, niderlandlı səyyah Yan Jansen Streysə və niderlandlı kitab naşiri Olfert Dapperə məxsusdur.

Yeni eksponatlarla, eləcə də muzeydə nümayiş etdirilən digər tarixi və maddi-mədəniyyət nümunələri ilə tanışlıq qonaqlarda böyük maraq doğurub.

# Yeni Azərbaycan Partiyası böyük tarixi yol keçərək xalqın birlik simvoluna çevrilib



Lerik rayon Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) Lerik rayon təşkilatının yaranmasının 25 illiyi qeyd olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının yaranmasının 25 illiyi ilə bağlı təşkilatın sədri Cəlil Baxşıyevin məruzəsi dinlənilib.

Partiyanın rayon təşkilatının üzvlərini əlamətdar yubiley münasibətilə təbrik edən C.Baxşıyev bildirib ki, Yeni Azərbaycan Partiyası xalqı ciddi şəkildə narahat edən məsələlərin həllinə nail olmaq istəyi nəticəsində yaranıb. Qeyd olunub ki, Azərbaycanın taleyini, müstəqilliyimizin itirilmək təhlükəsini düşünən bir qrup ziyalı 1992-ci ildə Yeni Azərbaycan Partiyasını yaratmaq və ona rəhbərliyi öz üzərinə götürmək xahişi ilə Heydər Əliyevə müraciət etdilər. Azərbaycanın ən yeni tarixinə "91-lərin müraciəti" kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəyini ifadə edirdi.

**"Ovaxtkı iqtidar partiyanın təsis konfransının Bakıda keçirilməsinə icazə vermədi. Yeni Azərbaycan Partiyası blokada şəraitində yaşayan Naxçıvanda yarandı. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə Azərbaycanın bütün regionlarından seçilmiş 550 nümayəndənin təmsil olunduğu təsis konfransı keçirildi və Yeni Azərbaycan Partiyasının yarandığı elan edildi. Ulu öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Xalqın və zamanın tələbi ilə yaranan Yeni Azərbaycan Partiyası Heydər Əliyevin rəhbərliyi ilə böyük tarixi yol keçərək Azərbaycanın inkişafı, müstəqil dövlət kimi formalaşması üçün bir sıra çətinlikləri aradan qaldırdı, xalqın birlik simvoluna çevrildi",** - deyə C.Baxşıyev qeyd edib.



Məruzə ətrafında müzakirələrdə YAP Lerik rayon təşkilatının aparat rəhbəri Elxan Qənbərov, rayon Ağsaqqallar Şurasının sədri Həmzə Vəliməmmədov, Vizəzəmin ilk partiya təşkilatının sədri, Şura üzvü Fərman Haşımov, YAP Qadınlar Şurasının üzvü Şəhla Məmiyeva və rayon təşkilatının Əliabad ərazi ilk partiya təşkilatının sədri Əkrəm Abdullayev çıxış edərək Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının yaranma zərurətindən, uğurlarından söhbət açıb, təşkilatın yaranmasının 25 illik yubileyi münasibəti ilə təbriklərini çatdırıblar.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Milli Məclisin deputatı İqbal Məmmədov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev və YAP mərkəzi aparatının məsul əməkdaşı Emil Abbasov çıxış edərək Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının yaranmasının 25 illiyi münasibətilə tədbir iştirakçılarına təbriklərini çatdırıblar. Bildirilib ki, Yeni Azərbaycan Partiyası təsis olunduqdan cəmi 1 il sonra - 1993-cü ildə rayonun qabaqcıl ziyalıları tərəfindən partiyanın Lerik rayon təşkilatı yaradılıb.

Çıxış edənlər YAP-ın ölkənin siyasi həyatında ən güclü və aparıcı partiya olduğunu, Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, xalqın rifah halının gündən-günə yaxşılaşdığını diqqətə çatdırıblar.

Sonra bir qrup fəal partiya üzvünə fəxri fərman və qiymətli hədiyyələr, yeni qəbul edilmiş üzvlərə partiya biletləri təqdim edilib.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə tədbir iştirakçıları adından müraciət qəbul olunub.

Tədbir konsert proqramı ilə davam edib.

# Aleksey Repik: İmzalanmış saziş Azərbaycan və Rusiya sahibkarlarının dialoquna yeni sistem formatı verir

IX Azərbaycan-Rusiya Regionlararası Forumun gündəliyində ikitərəfli iqtisadi əməkdaşlıq, Azərbaycan və Rusiya şirkətləri arasında qarşılıqlı əlaqə məsələləri var. Bugünkü forum əlamətdar bir tədbirlə - Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının ilk birgə iclası ilə başlanıb.

AZƏRTAC xəbər verir ki, Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik bu fikri jurnalistlərə müsahibəsində söyləyib.

A.Repik qeyd edib ki, dövlətlərimizin liderləri iki ölkənin regionları, şirkətləri və bütövlükdə ölkələr səviyyəsində əməkdaşlıq, hökumətlərarası komissiyanın işində hər iki ölkənin federal icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin yeni formatı sayəsində yaranmış yeni perspektivləri, imkanları və ambisiyaları dəqiq göstəriblər. Budəfəki saziş Azərbaycan və Rusiya sahibkarlarının dialoquna yeni sistem formatı verən institusional çərçivədir. Bu formatın səmərəliliyi çoxdan sübut olunub. Sahibkarlıq mədəniyyəti ilə məşhur olan ölkələrimiz yeni istiqamətləri inkişaf etdirməyə, həm Rusiyada, həm də Azərbaycanda vətəndaşlarımızın həyat keyfiyyətinin artırılması sahəsində liderlərimizin qarşıya qoyduğu vəzifələrə maksimum uyğun gəlməyə hazırdır. Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuraları əsas mahiyyəti logistika və nizamlama sahəsində ümumi problemlərin həllinə kömək etməkdir.



Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri qeyd edib ki, biz bu sazişin köməyi ilə bir-birimizin mənafelərini təmsil etməli, azərbaycanlı tərəfdaşlarımızın Rusiyada üzləşdiyi məsələləri mədəni, sivil təcrübə çərçivəsində həll etməyə imkan yaratmalıyıq. Aleksey Repik sonda deyib: **"Mən çox ümid edirəm ki, Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuraları arasında əməkdaşlıq haqqında imzalanmış saziş müddətsiz olacaq. Bizim məqsədimiz rusiyalı sahibkarlar tərəfindən Azərbaycan bazarı üçün və azərbaycanlı sahibkarlar tərəfindən Rusiya bazarı üçün təkliflərin çeşidini maksimum dərəcədə artırmaqdır".**

Qeyd edək ki, Bakıda keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumunda Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuraları arasında əməkdaşlıq haqqında saziş imzalanıb. Sənədi Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov və Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik imzalayıblar.

# Bayram Heydərov - vətənpərvərliyi və maarifçiliyi ömrünün mənasına çevirən ziyalı



Maarifçilik elə bir ziyadır ki, uzun illər ötsə belə işığı xeyli insanın ömür yoluna nur saçmaqda davam edir. Maarifpərvər insanların fəaliyyətinin əsas qayəsi də başqalarının ömür yolunu nurlandırmaqdır. Maarifçilik vətənpərvərliyin başqa yöndən təzahürüdür. Yalnız Vətənini ürəkdən sevənlər bütün həyatını Vətən övladlarının savad alması üçün fəda edə bilərlər. Böyük maarifpərvər ziyalı Bayram Heydərov da belə vətənpərvər pedaqoqlardan idi.

Bayram Heydərov 1956-cı il mart ayının 22-də Qərbi Azərbaycanın Zəngibasar rayonunun Dəmirçi kəndində ziyalı ailəsində dünyaya göz açıb. Orta təhsilini doğma kəndlərində alan gələcəyin böyük pedaqoqu ali təhsilini 1974 - 1979-cu illərdə Azərbaycan Dövlət Universitetinin mexanika - riyaziyyat fakültəsində tamamlayıb. Təyinatla AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun Xüsusi Konstruktor Bürosuna göndərilən Bayram Heydərov burada laborantdan aparıcı konstruktor vəzifəsinədək yüksəlib.

Bayram Heydərov ötən əsrin 80-ci illərinin sonlarında Leninqrad (indiki Sankt-Peterburq) şəhərindəki elmi mərkəzdə 6 ay müddətində, Novosibirsk Dövlət Universitetində iki illik ixtisasartırma kurslarında olmuş, aspiranturanı bitirmiş, SSRİ Elmlər Akademiyasının həqiqi üzvü, akademik M.M. Lavrentyevin rəhbərliyi ilə Novosibirsk Dövlət Universitetində differensial tənliklər ixtisası üzrə müdafiə edərək elmlər namizədi elmi dərəcəsi almışdır. O, 1988-ci ilin yanvar ayında Vətənə dönərək AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda fəaliyyətini davam etdirmişdir. Bu, o zamana təsadüf edirdi ki, artıq Ermənistan tərəfindən torpaqlarımıza iddialar eşidilməkdə idi.

Riyaziyyat və Mexanika İnstitutunun Xüsusi Konstruktor Bürosunda çalışdığı zaman Bayram Heydərov həm də müasir hərbin inkişafında məxsusi yeri olan məsələlərlə məşğul olmuşdur. Həmin illərdə Azərbaycanda tətbiqi elmlərin inkişafına ciddi diqqət yetirilirdi. SSRİ hərbi sənayesinin inkişafı üçün güclü elmi mərkəzlər müəyyən sifarişləri yerinə yetirirdilər. Bu da öz növbəsində elmin inkişafına təkan vermiş oldu. Müstəqilliyimizin ilk illərində Leninqrad (indiki Sankt-Peterburq) və Novosibirsk şəhərlərində ezamiyyətdə olduğu vaxtlarda topladığı elmi, nəzəri təcrübəyə söykənərək qurulmaqda olan Müdafiə Nazirliyinə (MN) həmfikir alim yoldaşları ilə cəbhədəki itkilərin qarşısını almaq məqsədilə müraciət edir, işçi qrupun yaradılmasına nail olurlar. Planları isə pərakəndə yaradılan MN-nin işini tənzimləyən elmi (hərbi) tədqiqatlar mərkəzi yaratmaq idi. Araşdırmalar aparıb, ölkədaxili imkanları müəyyənləşdirdikdən sonra təklifləri MN-ə, sonralar Azərbaycan Respublikası Prezidentinin hərbi məsələlər üzrə müşaviri olan qərargah rəisi, general-polkovnik Nurəddin Sadıqova təqdim edirlər. Aydın olur ki, Azərbaycanda bu məsələlərin həllinə qabil olan nə yüksək, nə də orta səviyyəli kadrlar var. Kadr probleminin aradan qaldırılmasına töhfə vermək məqsədilə Bayram Heydərov və AMEA-nın əməkdaşları olan alimlərdən ibarət vətənpərvər ziyalılar istiqamətlər üzrə yeni tipli məktəb yaradılması yönündə planlarını gerçəkləşdirmək üçün fəaliyyətə başlayırlar. Bu fəaliyyət Azərbaycanda təhsil sisteminin tənəzzül dövrünə təsadüf edirdi. Ölkədə gedən dağıdıcı proseslər orta təhsili də çökdürməkdə idi...

Qeyd edək ki, AMEA-nın elmi-tədqiqat institutlarının əməkdaşlarını da bir araya gətirməklə Riyaziyyat və Mexanika İnstitutunda Bayram müəllimin təşəbbüsü və institutun direktoru, böyük alim, akademik Fəraməz Maqsudovun dəstəyi ilə respublikada riyaziyyat elmi sahəsində alınmış nəzəri nəticələrin tətbiqi sahəsində işləmək üçün institutun nəznində "Zəngi" adında kiçik dövlət müəssisəsi də yaradılmışdı. Fəaliyyəti ərzində "Zəngi" kiçik dövlət müəssisəsində çalışan alimlər tərəfindən orta məktəb şagirdləri üçün müxtəlif adlarda kitablar yazılmış, müxtəlif müəssisələr üçün avtomatik idarəetmə sistemləri yaradılmış, dəqiq ölçü cihazları hazırlanmışdır.

Elmin müxtəlif istiqamətlərində çalışan tanınmış alimlər qrupunu profil üzrə məktəb yaradılması ideyasına inandıran və bu prosesə cəlb edən Bayram müəllim onlarla birlikdə Nizami rayonu ərazisində kibernetika, radioelektrorinika, biokimya və genetika profilləri üzrə "Zəngi" liseyi yaradılmasını gerçəkləşdirmək üçün Riyaziyyat və Mexanika İnstitutunun rəhbərliyinə müraciət edirlər. İnstitutun əməkdaşları və elmi şurası tərəfindən bu ideya bəyənilir. Məsələnin həlli üçün institutun direktoru rəhmətlik Fərəməz Maqsudov tərəfindən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına 16.07.1992-ci il tarixdə №38-3/264 nömrəli məktubla müraciət olunmuşdur. Nizami Rayon İcra Hakimiyyətinin 27.07.1992 - ci il tarixli 699 saylı sərəncamı, Azərbaycan Respublikası Təhsil nazirinin 28.07.1992 - ci il tarixli 684 saylı sərəncamı, Bakı Şəhər İcra Hakimiyyəti başçısının 14.08.1992 - ci il 1159 saylı sərəncamı ilə "Zəngi" liseyinin yaradılması rəsmiləşdirilmişdir.

"Zəngi" liseyi və Nizami rayonundakı 250, 252 nömrəli məktəblər daxil olmaqla Məktəb - Lisey Təhsil Mərkəzi yaransa da ilk öncə heç bir səbəb göstərilmədən bu mərkəz ləğv edilmişdir. Həmin əmri almaq üçün dəfələrlə sorğu etsə də Bayram müəllimə bu əmr verilməmişdir. Müəyyən müddət keçdikdən sonra fəaliyyəti Təhsil Mərkəzi ilə birgə dayandırılan "Zəngi" liseyinə fəaliyyət göstərməyə razılıq verilmişdir.

"Zəngi" liseyinin fəaliyyətinə icazə verilsə də artıq tək məktəb olaraq da işləməsi heç də asan olmamışdır. Yarandıqdan sonra məqsədyönlü fəaliyyətinə baxmayaraq heç bir səbəb və açıqlama vermədən, aydınlıq gətirmədən qısa müddətdən sonra Təhsil Nazirliyinin 26.05.1993 - cü il tarixli 13 saylı əmri ilə liseyin fəaliyyəti də dayandırılmış, yerləşdiyi Nizami rayonundakı 251№li məktəbin binasına şagirdlər və fəlsəfə doktorları, elmlər doktorları olan müəllimlər buraxılmamışlar.

Məhz Bayram Heydərovun prinsipiallığı, vətənpərvərliyi, zəngin biliyi, eləcə də AMEA-nın bir neçə institutunun əməkdaşlarının onun ətrafında birləşərək mübarizəyə qoşulmaları, onların 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevə müraciət etmələri "Zəngi" liseyinin yenidən açılmasına, fəaliyyətə başlamasına səbəb olmuşdur. "Zəngi" liseyinin yüksək səviyyəli elmi dərəcəli müəllimlərinin fədakarlığı, sonrakı mərhələdə kollektivlə aparılan ciddi iş nəticəsində uğurla irəliləyən bu təhsil ocağının məzunlarının ölkəmizdə, xarici ölkələrdə ali təhsil müəssisələrinə yüksək keyfiyyət göstəricisi ilə daxil olmaları, tutduqları vəzifənin öhdəsindən layiqincə gəlmələri, məzmunlu təhsilin bütün parametrlərinin tətbiqinə nail olunması, müəllimlərin peşəkar səviyyəsinin artırılması, müasir təlim texnologiyalarının çox-çox əvvəllər təlim prosesində tətbiqinə nail olunması, müəllimlərin, məktəb rəhbərliyinin yaxşı işinə görə Təhsil Nazirliyi, ölkə rəhbərliyi tərəfindən rəğbətləndirilməsi-bütün bunlar Bayram Heydərovun zəhmətinin, müəyyən etdiyi strategiyanın doğruluğunun nəticəsi idi.

Bir məsələni də nəzərdən qaçırmaq olmaz. "Zəngi" liseyinin keçməkeşli yolunda Bayram Heydərova AMEA-nın digər elmi-tədqiqat institutlarından, xüsusilə keçmiş SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrini bitirib ölkəmizə fayda vermək üçün gələn mütəxəssislərin dəstək verməsinin səbəbi maraq doğurmaya bilməz. Məsələ burasındadır ki, Bayram Heydərov AMEA-nın yeni çoxmərtəbəli aspirantlar yataqxanasına sədr seçilmişdi. Burada bütövlükdə AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarında çalışan gənclər, aspirantlar, alimlər özü gənc, lakin ədəbi, ərkanı, ləyaqəti, savadı ilə ağsaqqal kimi qəbul olunan, onların problemlərini ən yüksək səviyyədə qaldıran və həllinə nail olan Bayram Heydərovu kəşf etmişdilər. Müxtəlif institutların əməkdaşlarının onun mübarizəsinə qoşulmalarının bir səbəbi də qeyd etdiyimiz etimad idi. Onunla Leninqrad və Novosibirskdə stajartırmada olduğu, aspiranturada oxuduğu müddətdə qazandığı dostlar, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda işlədiyi müddətdə, xüsusilə "Zəngi" kiçik dövlət müəssisəsinə rəhbərlik edərkən aşkarlıqla və halallıqla idarə etməsi artıq Bayram Heydərovun səsinə səs verən elm adamlarının sayını, keyfiyyət göstəricisini artırırdı. "Zəngi" liseyinin yaranmasından tutmuş bu günədək heç bir təhsil ocağının təşəkkül tapmasına bənzəməyən, yolu ağır olsa da mübarizəsindəki ədalətlilik sonrakı işləri halallıqla davam etdirməsinə səbəb olurdu. Bayram Heydərovun şəxsiyyəti onun qeyd etdiyimiz fəaliyyəti zamanı aydınlaşır, ona hədsiz inam yaranırdı...

Müxtəlif ixtisaslı, dünya görüşünə malik, fərqli vəzifələrdə işləyən və s. insanlar Bayram müəllimə elə ilk görüşdə bağlanırdılar. Saf idi, riyakarlıq, xəyanət, arxadan zərbə vurmaq kimi mənfi keyfiyyətlər ona yad idi.

Bayram müəllim müsahibələrinin birində Davos İqtisadi Forumunda səslənən "XXI əsr internet və genetika əsridir" deyimini diqqətə çatdırmaqla, məhz qeyd olunan istiqamətlər üzrə yeni tipli məktəbin - liseyin yaradılmasının nə qədər uzaqgörən qərar olunduğunu qeyd edirdi.

Bayram müəllimin qısa şəkildə alim, pedaqoq kimi təhsilimiz, vətənpərvər insan kimi cəmiyyətimiz qarşısında xidmətlərini qeyd etdik. B.Heydərov onun və "Zəngi" liseyinin yetirmələrinin ən nüfuzlu ölkələrdən sədalarının gəlməsinə həmişə sevinər, məclislərdə fəxrlə adlarını çəkərdi. Bir məsələni xüsusi olaraq vurğulamaq istərdik ki, liseyi yaradarkən AMEA institutlarında çalışan alimləri başına yığsa da, bu təhsil ocağı böyüdükcə artıq yeni, gənc, perspektivli kadrları məktəbə cəlb edir, bu iki nəsil arasında elmi - pedaqoji, ali - orta təhsil müəssisələri və mütəxəssislərin körpüsünü yaradır və sonuncuların inkişafına təkan verən addım atırdı.

Yeni işə qəbul olunan nəsil müəllimlər liseyin yaradılması və inkişafında rolu, elmi dərəcəsi olan mütəxəssislərin əhatəsində sürətlə inkişaf etməyə başladılar. Müəllimlərin yuxarı təhsil qurumları, eləcə də müxtəlif təşkilatlar tərəfindən inkişafa həvəsləndirən layihələrdə yer qazanmaları, uğura imza atmaları liseyin nailiyyətlərini şərtləndirməkdə idi. Bayram müəllim kənardan qarışıq, çətin görünən prosesi elə tənzimləyirdi ki, müxtəlif elmi-tədqiqat institutlarının əməkdaşları, ali təhsil ocaqlarında dərs deyən müəllimləri, orta məktəb müəllimlərinin arasında fərdi, qarşılıqlı, qrup münasibətləri işçilərin, liseyin nəhayət təhsilin inkişafına yönəlir, xidmət edirdi.

Təəssüflə qeyd etməliyik ki, Bayram Heydərov doktorluq müdafiəsini başa çatdıra bilmədi. Türkiyədə, Rusiyanın Novosibirsk şəhərində beynəlxalq reytinqli jurnallarda məqalələri çap olunsa da ömür vəfa etmədi ki, o, işləri toparlayıb müdafiə etsin.

Bayram müəllim 2006-cı ildə Türkiyənin Zolquldak Karaelmas Universitesində keçirilən beynəlxalq simpoziuma dəvət almış və iştirak etmişdir. İranda Qum şəhərində keçirilən konfransda da Azərbaycan nümayəndə heyətinin tərkibində məhsuldar fəaliyyət göstərmiş, zəngin kitabxanaya malik olan mərkəzdə xüsusən dini, tarixi materialların cüzi hissəsi ilə maraqlanmağa vaxt tapmış, faydalanmışdır.

Novosibirsk Dövlər Universiteti, Rusiya EA Sibir filialının Riyaziyyat və Mexanika İnstitutu, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu ilə sıx əlaqələri son günlərə qədər davam etdirilirdi. Türkiyədə işləyən azərbaycanlı alimlərlə - elmlər doktorları Vərqa Kələntərli. Rauf Xələfov və başqa elm adamları ilə mütəmadi əlaqə saxlayırdı. Rusiya EA-nın dünya şöhrətli akademiki M.M. Lavrentyevin Bayram müəllim tərəfindən Bakıya dəvət olunması, onunla elmi dairələrdə və "Zəngi" liseyində görüşməsi vətənpərvər insanın geniş planlarının tərkib hissəsinə daxil idi.

Bu gün Bayram Heydərovun yolunu davam etdirəcək kadrların olması bizləri sevindirir. Bayram müəllimin qızı Səadət Heydərova AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun dissertantıdır. O da "Zəngi" liseyində riyaziyyat müəllimi kimi çalışır. Bayram Heydərovun digər üç övladı onun himayəsində tərbiyə alırdı. Təəssüflər olsun ki, ADA - nın tələbəsi olan oğlu Mirheydəri və qızlarını yerbəyer etmədən bu dünyadan vaxtsız köçdü. Allah sənə rəhmət eləsin, böyük pedaqoq, müəllim, xeyirxah insan!

Sonda Bayram müəllimin vətənpərvərliyinin nümunəsindən birini qeyd etmək yerinə düşərdi. Yenicə aspiranturanı bitirib Azərbaycana qayıdan Bayram müəllim Azərbaycanda başlayan xalq hərəkatına qoşulur və onun fəallarından olur. Mitinqlərdə iştirak edən Bayram Heydərov atası Mirabbas müəllimdən 1988 - ci il noyabr ayının sonlarında xəbər alır ki, Qərbi Azərbaycanın Zəngibasar bölgəsinin əhalisi erməni vəhşiliyi nəticəsində Türkiyə ilə sərhədə yığılmışlar, təcili kömək gəlməsə insanlar məhv olmaq təhlükəsi ilə üz - üzə qalacaqlar. Havaların soyuq keçməsi, insanların yandırmağa odun, kömür tapa bilməməsi, qida məhsulları üçün rayon mərkəzinə, İrəvana gedə bilməməsi vəziyyəti dözülməz hala salmışdı.

Zəngibasardan olan ermənilər tərəfindən doğma yurd-yuvasından qovulan soydaşlarımızın bir hissəsi Bakıda hərbi komendaturanın qarşısında piket keçirir, Zəngibasarda qalan insanların dözülməz, çıxılmaz vəziyyətini komendanta çatdırmaq, tədbir görmək üçün tələb səsləndirirlər. Hərbi komendantla bir neçə nəfər görüşür, bölgənin xəritəsini təqdim edirlər. Komendant bölgəni tanıyan piket iştirakçılarına müraciət edir. Yüzlərlə insanın arasından bir neçə nəfər, o cümlədən Bayram Heydərov könüllü olaraq İrəvana - Zəngibasara getmək arzusunu bildirir və mülki şəxslərə rəhbərlik ona həvalə olunur. 1988-ci il dekabr ayının əvvəllərində Bakının Qala aeroportundan hərbi təyyarə ilə bir qrup hərbçi ilə İrəvanın Erebuni aeroportunda yerə enirlər. Erebuni aeraportunda işləyən və sərnişin kimi təyyarə gözləyən ermənilərin meydana tərəf axışmasının qarşısını hərbçilər çətinliklə alır və yaratdıqları dəhlizlə onları hərbi vertalyotla hadisə yerinə çatdırırdılar. O, hərbi vertolyotla azərbaycanlıların toplaşdıqları Rəncbər kəndində meydana yığışan azərbaycanlı əhalini havadan müşahidə edərkən sarsıldığını deyir, sonuncu dəfə bu yerlərə gəlişini düşündüyünü danışarkən kədərlənirdi. İmkansız, ev dəyişə bilməyən insanların təhlükəsiz, yalnız sərhəd zonası ilə çıxarılmasına təkid edən və buna nail olan Bayram Heydərovu bu gün də insanlar minnətdarlıqla xatırlayırlar.

Bayram müəllimin fəaliyyəti elmi-pedaqoji sahə ilə məhdudlaşmır. Bayram Heydərovun ictimai-siyasi fəaliyyəti də diqqəti cəlb edir. O, Yeni Azərbaycan Partiyasının I qurultayının nümayəndəsi olmuş və qurultayda Siyasi Şuranın üzvü seçilmişdir. Yeni Azərbaycan Partiyası kimi nəhəng bir partiyanın Siyasi Şurasında təmsil olunmaq onun siyasi çəkisinin göstəricisi idi.

Bayram Heydərov kimi ziyalılar yalnız cismani olaraq bizdən ayrıla bilərlər, onların mənəvi həmişəyaşarlığının və səmərəli fəaliyyətinin bəxş etdiyi sönməz işıq isə hələ çox uzun illər insanların həyatlarını nurlandırmağa davam edəcək.

**Vüqar Rəhimzadə,**
**YAP Siyasi Şurasının üzvü,**
**"İki sahil" qəzetinin baş redaktoru,**
**Əməkdar jurnalist**

# Xaricdəki Azərbaycan məktəblərinin sayı artırılacaq

Dünyada gedən qloballaşma prosesi, xalqlar arasında sürətli inteqrasiya meyillərinin güclənməsi diaspor quruculuğu sahəsində daha effektiv işlər görməyi qaçılmaz edir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu diaspor siyasətinin mahiyyəti azərbaycanlıların tarixi vətənləri ilə əlaqələrini inkişaf etdirmək və diasporun potensialından faydalanmaq, eyni zamanda, xaricdə yaşayan azərbaycanlıların mədəni-siyasi hüquqlarını müdafiə etməkdən ibarətdir. Azərbaycan bu məqsədlərə çatmaq üçün xeyli yol qət edib. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursu son dövrlərdə diaspor hərəkatını daha da gücləndirib, xaricdəki Azərbaycan icmaları arasında əlaqələr möhkəmlənib, haqq səsimizin dünyaya çatdırılması, həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi istiqamətində bir sıra nailiyyətlərə imza atılıb. Bəzi ölkələrin təcrübəsinə baxdıqda görünən odur ki, diaspor ilə sarsılmaz bağlar qura bilən ölkələr beynəlxalq arenada daha güclü tərəfə çevrilirlər. Ölkəmiz də məhz bu hədəfə doğru irəliləyir.

Diasporla əlaqələrin möhkəmləndirilməsi və xaricdə yaşayan soydaşlarımızla etibarlı körpülər qurulmasının mühüm həlqələrindən biri də müxtəlif ölkələrdə Azərbaycan dili məktəblərinin açılmasıdır. Bu məktəblər dilimizi, milli-mənəvi dəyərlərimizi yaşadır və təbliğ edir. Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan azərbaycanlıların Azərbaycan dilini unutmaması, soydaşlarımız arasında dilimizin yaşaması üçün davamlı işlər görür. Bu məqsədlə Komitənin nəzdində fəaliyyət göstərən "Diaspor TV"də onlayn Azərbaycan dili dərslərinin təşkili istiqamətində işlər artıq yekunlaşmaq üzrədir. Eyni zamanda, müxtəlif ölkələrdə Azərbaycan dilində həftəsonu məktəblərinin sayının artırılması yolunda addımlar atılır.

Xaricdə fəaliyyət göstərən Azərbaycan dilli məktəblərin müasir mənzərəsinə gəldikdə, qonşu Türkiyədə Zəhra Ana Yardımlaşma və Həmrəylik Dərnəyinin, Azərbaycan Təhsil, Mədəniyyət və Sosial Həmrəylik Dərnəyinin, Azərbaycan Təhsil və Kültür Dərnəyinin nəzdində Azərbaycan məktəbləri fəaliyyət göstərir.

Bununla yanaşı, hazırda Qazaxıstanda 7, Özbəkistanda 1, Qırğızıstanda 2 Azərbaycan dilli məktəb fəaliyyət göstərir. ABŞ və bəzi başqa ölkələrə nəzər saldıqda isə, Floridada 2, Nyu-Yorkda 1, Bruklində 1, Kaliforniyada 1, Torontoda 1, Ottavada 1, Londonda 1 Azərbaycan dilli məktəb həmvətənlərimizə doğma dilini, tarix və mədəniyyətini öyrədir. Qeyd etməliyik ki, bəzi ölkələrdəki həftəsonu Azərbaycan dili məktəbləri də uğurla işlərini davam etdirir. Danimarka, İsveçrə, Niderland, Fransa, Estoniya, Litva, Niderland Krallığı da Azərbaycan dili məktəblərinin fəaliyyət göstərdiyi ölkələr sırasındadır. Qonşu Gürcüstanda isə bu məktəblərin sayı daha çoxdur və 80-ni ötüb.




Hazırda Ukraynanın Xarkov şəhərində fəaliyyət göstərən "Dostluq" cəmiyyətinin, Ukrayna Azərbaycanlıları Birləşmiş Konqresinin Odessa, Nikolayev, Donetsk, Dnepropetrovsk və digər şəhərlərdəki regional bölməsinin nəzdində də Azərbaycan dili üzrə şənbə-bazar sinifləri fəaliyyət göstərir ki, bu siniflərdə də dilimiz, mədəniyyətimiz və tariximiz haqqında məlumatlar verilir.

Daha çox sayda azərbaycanlının yaşadığı qonşu Rusiya Federasiyasına gəldikdə isə, ölkədə fəaliyyət göstərən bir çox Azərbaycan diaspor təşkilatlarının nəzdində həftəsonu məktəbləri var. Moskva, Sankt-Peterburq, Kursk, Krasnoyarsk, Vladivostok, Voronej, Tambov, Tula, Kaliningrad, Çuvaşiya, Perm, Tomsk, Novosibirsk, Çita, Orenburq, Stavropol, İvanovo, Tümen, Arxangelsk, Çelyabinsk, Amur, Murmanskda Azərbaycan dili və mədəniyyətini öyrədən məktəblər vardır. Ümumilikdə Rusiya Federasiyasının 53 regionunda Azərbaycan dili, tarixi, mədəniyyətini tədris edən həftəsonu məktəbləri fəaliyyət göstərir.

Hazırda Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə Azərbaycan məktəblərinin sayının artırılması, soydaşlarımızın dilimiz, tariximiz, mədəniyyətimiz və ümumilikdə ölkəmiz haqqında daha geniş informasiyalar əldə etməsi üçün ardıcıl addımlar atır.

Bu istiqamətdə görülən işlər yalnız məktəblərlə məhdudlaşmır. Bir sıra ölkələrdə müvafiq kurslar da var. Davamlı olaraq, fəaliyyət göstərən kurslar Azərbaycan dilinin, mədəniyyətinin incəliklərini nəinki soydaşlarımıza, onların övladlarına, eyni zamanda, xarici ölkə vətəndaşlarına da öyrədir. Kursların, eləcə də məktəblərin məqsədi həm də miqrasiya etmiş soydaşlarımızın adaptasiya, bu ölkədə doğulmuş uşaqların isə assimilyasiya probleminin həllinə dəstək göstərmək, uşaqların inkişafını təmin etmək, onlara Azərbaycan adətlərini aşılamaq, dilimizi yaşatmaq, mədəniyyətimizi və tariximizi öyrətmək, eyni zamanda, gənc soydaşlarımız arasında istedadlı uşaqları aşkar edərək onların inkişafına kömək etməkdir. Bütün bunlar həm də azərbaycanlı ailələrin bir-biri ilə ünsiyyəti baxımından faydalıdır.

Beləliklə də, Azərbaycan dili və mədəniyyətinin təbliği ilə yanaşı, həm də Azərbaycanın zəngin tarixi-mədəni irsə malik olduğu, tolerant və sülhpərvər bir xalq olduğu bir daha dünyaya bəyan edilir. Bütün bunlarla yanaşı, istər məktəblərin, istərsə də kursların fəaliyyətində Azərbaycan həqiqətləri, torpaqlarımızın işğalı, Dağlıq Qarabağ problemi ilə bağlı informasiyaların dünya ictimaiyyətinə çatdırılması əsas hədəflərdən biridir.

"Vətən uzaqda deyil" devizi ilə fəaliyyət göstərən Diasporla İş üzrə Dövlət Komitəsi məktəblərin, kursların, təşkilatların sayının daha da çoxaldılmasını təqdir etməklə, hər bir soydaşımızın yanında olmağı hədəf seçib, onların arxasında güclü və müstəqil Azərbaycan dövlətinin dayandığını və ona azərbaycanlı olması ilə qürur duymağı aşılayır.

Son olaraq bildirək ki, artıq dünyada diaspor anlayışına yeni yanaşma ortaya qoyulur. Modern diasporların son önəmli parametri təşkilati-mobillikdir. Dil birliyi, əməl birliyi mobilliyin mühüm elementidir. Buna nail olmaqla yeni platformalarda irəliləmək mümkündür və Komitənin fəaliyyətinin əsas sütunu olan Strateji Yol Xəritəsinin mahiyyəti də məhz buna xidmət edir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında arıçılığın inkişafı diqqət mərkəzində saxlanılır

*Hazırda ölkə üzrə təsərrüfatlarda təxminən 300 min arı ailəsi var və respublikada illik bal istehsalı 3 min tona çatdırılıb*



(əvvəli ötən sayımızda)

Solmaz Nəcəfova qeyd edib ki, arıçılıqla məşğul olan şəxslərə saxladıqları hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya müəyyən edilməsi bu sahəyə marağı daha da artıracaq. **"Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə subsidiya verilməsi ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi qaydalarla tanış oldum. Biz arıçılar arıçılığın inkişafına göstərilən dövlət qayğısından ruhlanaraq, təsərrüfatımızı daha da genişləndirəcək və arıçılıq məhsulları istehsalında yüksək nəticələrə nail olmağa çalışacağıq",** - deyə arıçı bildirib.

### ASTARADA ARIÇILIQ SAHƏSİNDƏ MƏHSULDARLIQ ÖTƏN İLLƏ MÜQAYİSƏDƏ 20 FAİZ ARTIB

Bu məqamda vurğulamaq yerinə düşər ki, dövlət tərəfindən göstərilən diqqət və qayğı regionlardakı arıçıları daha məhsuldar işləməyə sövq edib. Məsələn, Astara rayonunda arıçılıqla məşğul olan fermerlər və məhsul istehsalçıları bu il yüksək məhsuldarlığa nail olublar. Rayonun arıçıları ilk bal süzümünü may ayının sonu - iyunun əvvəllərində aparıblar. Bundan sonra isə daha da bol məhsul əldə etmək üçün arı ailələri Aran rayonlarına köçürülmüşdü. Avqust ayından etibarən isə tədricən geri gətirilən arı ailələrindən mövsümün sonuncu bal süzümünə başlanılıb.

Orta hesabla hər bir arı ailəsindən 24-25 kiloqram bal əldə edən arıçılar bu il məhsuldarlığın ötən illə müqayisədə 20 faiz artdığını bildiriblər. Arıçılar balın qiymətinin onun keyfiyyətindən asılı olaraq 25-35 manat arasında dəyişdiyini deyirlər.

Qeyd edək ki, Astara rayonunda olan 1300 arıçılıq təsərrüfatında 27 minə yaxın arı ailəsi saxlanılır. Ötən il rayonda 300 ton bal məhsulları istehsal olunub. Bu il bu rəqəmin 400 tona çatdırılması nəzərdə tutulur.

### MUXTAR RESPUBLİKADA 4070 SAHİBKAR ARIÇILIQLA MƏŞĞULDUR

Arıçılığın inkişafı Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzindədir. Bildirmək yerinə düşər ki, hazırda muxtar respublikada 4070 sahibkar arıçılıqla məşğuldur. Onların 549 nəfəri 20-250 arı ailəsi olan sahibkardır. Aqrar sahədə aparılan islahatlardan əvvəl muxtar respublikada cəmi 6045 arı ailəsi var idisə, hazırda bu rəqəm 71 min 66-ya çatdırılıb. Arı ailələrinin bu artımının nəticəsidir ki, ötən il muxtar respublikada 1424 ton bal istehsal olunub.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası istiqamətində ötən müddətdə xeyli iş görülüb. Həyata keçirilən tədbirlərdən biri də 2016-2017-ci illərdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Arıçılıq məhsulları-bal festivalı"nın təşkilidir. Festivalda arıçılıq məhsullarının, balın sərgi və satışının təşkili bu sahəyə marağı xeyli artırıb.

Muxtar respublikanın Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı İntiqam Hüseynbəyli AZƏRTAC-ın Naxçıvan bürosuna bildirib ki, Naxçıvanda arıçılığın yem bazasını aran, dağətəyi və dağlıq ərazilərin bitki örtüyü təşkil edir. Naxçıvanın təbii-coğrafi iqlim şəraitini, eyni zamanda, bitki örtüyünün müxtəlifliyini nəzərə alaraq arı ailələrinin normal inkişafını təmin etmək üçün onların mövsüm ərzində azı beş dəfə köçürülməsi vacibdir.

İlk olaraq qışlamadan çıxmış arı ailələri dağətəyi bölgələrdən aran bölgələrinə köçürülür. Bu dövrdə aran bölgələrində hava şəraitinin başqa bölgələrə nisbətən isti keçməsi arı ailələrinin oyanmasına və ana arıların yuva daxilində daha erkən yumurta qoymasına səbəb olur. Arı ailələri bu zaman yuva daxilində ehtiyat baldan və çiçək tozundan istifadə edərək inkişafa başlayır. Bu zaman şanlarda balın möhürünün arıçı tərəfindən az miqdarda açılması diqqətdə saxlanılmalıdır. Möhürü açılmış balın iyi arıları özünə cəlb edir. Balla qidalanma arı ailələrinin daha tez oyanmasına və inkişafın erkən başlamasına səbəb olur. Arı ailələri mart ayının ikinci ongünlüyünə qədər yuvadaxili qidanın hesabına inkişaf edərək keyfiyyətcə yeni, cavan nəsil ilə əvəz olunur.

Mayın 15-nə kimi aran bölgələrində işləyən arı ailələrini yenidən dağətəyi bölgələrə aparmaqla onların ikinci köçürülməsi təşkil edilir. Arı ailələrini, əsasən, bitkilərin nektar əmələgətirmə dövründə dağətəyi bölgələrə, ilin ən isti aylarında isə (iyulda) dağlıq bölgələrə aparmaqla üçüncü köçürülməsi təşkil edilir. Avqust ayında arı ailələrini aran bölgələrinə yenidən qaytarmaqla onların dördüncü köçürülməsi həyata keçirilir. Arıların son işləmə dövrü avqust və sentyabr aylarıdır. Bu dövrdə arılar nektar və çiçək tozunu yoncadan, üzümdən və payız çiçəklərindən toplayırlar. Oktyabr ayının əvvəlindən arı ailələrinin yuvası qış üçün yığılır və respublikanın dağətəyi bölgələrinə aparmaqla onların sonuncu - beşinci köçürülməsi təşkil edilir. Arıçılar arı ailələrini yerli şəraitdən asılı olaraq əsas nektar əmələgəlmə dövründə bir dəfə əvəzinə, iki və ya üç dəfə köçürə bilərlər. Arı ailələri vaxtında, planlı qaydada köçürülməlidir. Bunun üçün arıçı öz bölgəsinin hər bir hektarında olan bitki örtüyündəki nektarın, təxminən, nə qədər olmasını bilməlidir.

Bal arılarının əlverişli uçuş diametri 3 kilometrdir. Bu, o deməkdir ki, pətəyin olduğu yerdən bütün istiqamətlərə tərəf 3 kilometr uzaqlıqda olan bitkilərdən arılar nektar toplaya bilər.

### İSMAYILLIDA BU İL ÖTƏN İLDƏKİNDƏN 1,2 TON ÇOX BAL İSTEHSAL OLUNUB

İsmayıllı rayonunda isə bal istehsalı başa çatıb və arıçılar cari mövsümdə bəslədikləri arı ailələrindən 61 ton bal götürüblər. Rayon icra hakimiyyətindən bildirilib ki, bu il istehsal olunan bal məhsulu ötən ildəkindən 1,2 ton çoxdur.

Qeyd edək ki, arıçılıq İsmayıllıda inkişaf etməkdədir. Peşəkar arıçıların da sayı ildən-ilə artır. Hazırda rayonda 7 min 180 arı ailəsi vardır ki, bu keçənilki göstəricidən 50 ailə artıqdır. Bu gün hər biri 100-200 arı ailəsi bəsləyən İslam Fətullayev, Müşviq Hüseynov, İvan Kazakov, Akif Abdullayev kimi onlarca peşəkar arıçılar ailə büdcələrinə yaxşı gəlir gətirən arıçılıqla məşğuldur.

Arıçılar istehsal etdikləri balı əsasən yerli bazarlarda satırlar. Hər il Bakı şəhərində keçirilən bal yarmarkasına orta hesabla 6-8 ton bal çıxarılır.

### QUBADAN YAPONİYAYA BAL İXRAC EDİLİR

Bu gün Azərbaycanda istehsal olunan təbii balın sorağı xarici ölkələrdən gəlir. Məsələn, qubalı arıçı Əziz Ələkbərov istehsal etdiyi balı Yaponiyadan olan müştərilərə satır. Təxminən 300 arı ailəsindən ibarət təsərrüfata sahib olan fermer artıq dörd ildir gündoğan ölkəyə müştərilərlə müqavilə əsasında bal göndərir. Yerli sahibkarlarla yaponiyalı iş adamları arasında razılaşmaya əsasən il ərzində 6-7 ton bal ixrac olunur ki, bunun da bir tonunu Əziz Ələkbərov təmin edir. Qubanın Susayqışlaq kəndindən olan arıçı builki məhsuldarlıqdan da razıdır. Hər arı yeşiyindən 15-20 kiloqram bal götürüb.

**"Biz yüksək məhsuldarlıq əldə etmək üçün mövsüm boyu arıların yerini 5-6 dəfə dəyişmişik. Bu, böyük zəhmət və xərc tələb edir. Bu işi görməsən yaxşı bal götürə bilməzsən. İndi aran balını süzürük. Artıq yekunlaşmaq üzrədir. Məhsuldarlıq da bizi qane edir. Bal süzümündən sonra çiçək tozlu çərçivələri arılara verəcəyik ki, normal qışlasınlar və öz balalarını qidalandırsınlar. Bizim region üçün səciyyəvi olan Boz Qafqaz arısıdır və məhsuldarlığı ilə seçilir. Digərlərinə nisbətən bu arıların xortumu uzun olur ki, bu da bitkilərdən şirə çəkməyi asanlaşdırır",** - deyə o bildirib.

Arıçı əldə etdiyi balı Yaponiyadan olan müştərilərlə yanaşı, yerli bazarda da satır. Bir kiloqram balın qiyməti isə 35 manatdır. Əziz Ələkbərov deyir ki, müştəri sarıdan çətinliyi yoxdur. Keyfiyyətli balın müştərisi hər zaman çox olur.

Müasir texnologiyanın təkmilləşməsi sənaye avadanlıqlarına da təsirsiz ötüşməyib. Təcrübəli arıçı bildirir ki, bu, müsbət hal olsa da, bəzi saxtakarlar bundan istifadə edirlər. Belə ki, işbazlar arıçılıq məhsullarının tərkibinə müxtəlif qarışıqlar əlavə edirlər və nəticədə təmiz, təbii balı keyfiyyətsizindən ayırmaq çox çətin olur. Əziz Ələkbərov alıcılara məsləhət görür ki, ancaq inandıqları, tanıdıqları arıçılardan bal alsınlar.

Quba rayonunda, ümumilikdə, 10 minə yaxın arı ailəsi saxlanılır. Bu il arıçılıq təsərrüfatlarından 50 tondan çox bal əldə olunub.

### DİGƏR BÖLGƏLƏRİMİZDƏ DƏ ARI AİLƏLƏRİNİN SAYI İLDƏN-İLƏ ARTIR

Ermənistanla həmsərhəd bölgələrimizdən olan və kəndləri tez-tez düşmən təxribatı nəticəsində atəşə tutulan Qazax rayonunda müharibə şəraitinin bütün çətinliklərinə baxmayaraq, yerli sakinlər kənd təsərrüfatının müxtəlif sahələri kimi arıçılığa da xüsusi maraq göstərir və arı ailələrinin sayını ildən-ilə artırırlar. Bu il Qazax rayonunda arıçılıqla məşğul olan sahibkarların sayı 535 nəfərə, arı ailələrinin sayı isə 2 min 940-a çatıb.

Bu il rayon üzrə hər arı ailəsindən orta hesabla 9,8 kiloqram olmaqla, ümumilikdə, 38 ton 620 kiloqram məhsul götürülüb. Ötən il isə 2 min 807 arı ailəsindən orta hesabla 9,6 kiloqram olmaqla, ümumilikdə, 26 ton 950 kiloqram məhsul əldə olunmuşdu.

Qeyd edək ki, Qazax rayonunun ən çox Quşçu Ayrım, Məzəm, Aşağı Salahlı, Fərəhli və digər kəndlərinin sakinləri arıçılıqla məşğul olurlar.

Samux rayonunda da ənənəvi sahələrdən olan arıçılığa maraq ildən-ilə artır. Hazırda rayonda 892 arı ailəsi mövcuddur. Bunun 853-ü əhali təsərrüfatlarında saxlanılır. Rayon Statistika İdarəsinin rəisi Gündüz Bayramov KİV-ə açıqlamasında bildirib ki, son 3 ildə rayondakı arı ailələrinin sayı 468 ədəd artıb. Gündüz Bayramov deyib ki, Samux rayonunun münasib iqlim xüsusiyyəti bu sahənin inkişafına əlverişli şərait yaradır.

**Mübariz ABDULLAYEV**

# Bakıda keçirilən cüdo üzrə dünya çempionatına yekun vurulub

*Mükafatçılar sırasında iyirmi iki ölkədən cüdoçular yer alıblar*








Sentyabrın 27-də Bakıdakı Milli Gimnastika Arenasında keçirilən cüdo üzrə dünya çempionatına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, çempionatın sonuncu - səkkizinci günündə qarışıq komanda yarışları keçirilib.

On səkkiz yığmanın mübarizə apardığı çempionatda Azərbaycan millisinin heyətində 11 cüdoçu yer alıb. Millimiz ilk görüşünü Avstriya yığmasına qarşı keçirib və 4:1 hesablı qələbə qazanıb. Dörddəbir finalda Yaponiya millisinə 2:4 hesabı ilə uduzan cüdoçularımız təsəlliverici görüşdə Niderland komandasını üstələyiblər - 4:2. Bürünc medal uğrunda görüşdə Rusiya millisinə 1:4 hesabı ilə məğlub olan cüdoçularımız çempionatı beşinci pillədə başa vurublar. Digər bürünc medalı isə birləşmiş Koreya komandası qazanıb.

Final görüşündə Yaponiya və Fransa milli komandaları üz-üzə gəliblər. Rəqibini 4:1 hesabı ilə məğlub edən Yaponiya millisi qarışıq komanda yarışlarının qalibi olub.

Kuboku qalib komandaya Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa təqdim edib.

Azərbaycan komandası dünya çempionatının fərdi yarışlarında iki medal qazanıb. Belə ki, Uşanqi Kokauri (100 kq-dan yuxarı çəki dərəcəsi) gümüş, Hidayət Heydərov (73 kq) isə bürünc medala sahib olublar.

Xatırladaq ki, çempionatda 125 ölkədən 800-dək cüdoçu mübarizə aparıb. Mükafatçılar sırasında isə yalnız 22 ölkədən cüdoçular yer alıblar.

# Bakıda keçirilən "ADEX-2018" üçüncü Beynəlxalq Müdafiə sərgisi başa çatıb







Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda keçirilən "ADEX-2018" üçüncü Beynəlxalq Müdafiə sərgisi sentyabrın 27-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, üç gün davam edən sərgidə Türkiyə, Fransa, İsrail, Rusiya, Belarus, Pakistan, Çin və sair dövlətlər daxil olmaqla dünyanın 29 ölkəsindən 224 şirkət iştirak edib. İştirak edən dövlətlərdən 11 ölkə - Azərbaycan, Türkiyə, Rusiya, Fransa, Belarus, Çin, Pakistan, İsrail, İran, Ukrayna və Serbiya milli pavilyonları ilə təmsil olunublar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərgi iştirakçılarına təbrik məktubu ünvanlaması və sərgidə şəxsən iştirak etməsi "ADEX-2018"in əhəmiyyətini daha da artırdı. Dövlətimizin başçısı bildirdi ki, "ADEX" sərgisi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, o cümlədən rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün səmərəli platformaya çevrilib.

Dövlət başçısı ziyarət zamanı Müdafiə Sənayesi Nazirliyinin stendində oldu və nümayiş etdirilən məmulatlarla yaxından tanış oldu.

Sərgini Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov, müdafiə naziri Zakir Həsənov və digər qurumların rəhbərləri də ziyarət ediblər. Dövlət rəsmiləri nümayiş etdirilən yerli məmulatları böyük maraqla izləyiblər.

"ADEX-2018" sərgisində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan məmulatlardan - 7,62 millimetrlik AZ-50 tipli avtomat, 7,62x54 millimetrlik HP-7,62 tipli hücum pulemyotu, 8,6x70 millimetrlik "Vaşaq" snayper tüfəngi, 12,7x108 millimetrlik "Mübariz" snayper tüfəngi, 12,7x108 millimetrlik ST-12,7 tipli iriçaplı snayper tüfəngi, 23x115 millimetrlik İST-23 tipli iriçaplı snayper tüfəngi, 14,5x114 millimetrlik NST-14,5 tipli iriçaplı snayper tüfəngi, 12,7 millimetrlik iriçaplı NSVT-12,7 tipli pulemyotlu məsafədən idarə olunan döyüş modulu ilk dəfə idi ki nümayiş etdirilirdi. Nümayiş etdirilən məmulatlardan AZ-50 tipli avtomat, HP-7,62 tipli hücum pulemyotu, ST-12,7 tipli iriçaplı snayper tüfəngi, İST-23 tipli iriçaplı snayper tüfəngi və digər məmulatlar iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Sərgi çərçivəsində müdafiə sənayesi nazirinin müavini Yəhya Musayevin sərgiyə qatılan ölkələrdən Türkiyə, Rusiya, Belarus, Ukrayna, İran, Özbəkistan, Serbiya, Sudan və digər ölkələrin rəsmi nümayəndə heyətləri, şirkət rəhbərləri ilə görüşləri olub. İkitərəfli görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparılıb. Eyni zamanda, nazirliyin aidiyyəti qurum rəhbərlərinin də bir sıra görüşləri olub, mövcud əməkdaşlıqların davam etdirilməsi və yeni əməkdaşlıqların qurulmasına dair danışıqlar aparılıb.

Görüşlərdə xarici nümayəndə heyətləri tədbirin yüksək səviyyədə təşkil edildiyini, sərgidə iqtisadiyyatın hərbi və müdafiə sahələrini təmsil edən dünyanın bir sıra tanınmış brendlərin geniş tərkibdə təqdim edildiyini xüsusi vurğuladılar.

Beynəlxalq nümayəndə heyətlərinin və xarici şirkətlərin "ADEX-2018" sərgisinə böyük maraq göstərməsi Azərbaycanın həm mühüm strateji tərəfdaş, həm də regionda etibarlı əlaqələrin rəmzi kimi yüksək rol və əhəmiyyətini bir daha təsdiq etdi.

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi Türkiyə, Rusiya, Fransa, Belarus, İsrail, Pakistan, Çin, Ukrayna, Bolqarıstan, Qazaxıstan, Belarus və digər ölkələrin stendlərini ziyarət edib, nümayiş etdirilən məmulatlarla yaxından tanış olub.

Sərgi çərçivəsində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyənin "ASELSAN" şirkəti arasında rabitə vasitələrinin birgə istehsalına dair əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Eyni zamanda, Müdafiə Sənayesi Nazirliyi ilə Müdafiə Nazirliyi arasında Silahlı Qüvvələrin rabitə vasitələrinin təchizatına dair anlaşma memorandumu imzalanıb.

Serginin əhəmiyyətini və sərgiyə olan marağı nəzərə alaraq tədbirin üçüncü günü "Açıq gün" olub.

Sərgini ziyarət edənlər arasında yerli və beynəlxalq mütəxəssislər, hərbi ekspertlər, hərbçilər, eləcə də dövlət strukturlarının və şirkətlərin nümayəndələri, Azərbaycan Texniki Universitetinin Xüsusi texnika və texnologiya fakültəsinin tələbələri və eyni zamanda, sıravi vətəndaşlar da olub.

Tədbirin keçirildiyi üç gün ərzində nümayiş etdirilən məmulatlara izləyicilər tərəfindən göstərilən böyük maraq sərginin əhəmiyyətini əks etdirdi. "ADEX-2018" sərgisinə, eyni zamanda, yerli və xarici kütləvi informasiya vasitələri tərəfindən də böyük maraq göstərilib. Sərginin gedişi ilə bağlı mütəmadi olaraq dolğun informasiyalar yayılıb.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU